

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib



3

# Beynəlxalq mətbuat Azərbaycan Prezidentinin NATO-nun Baş katibi ilə görüşündən yazır



Arab News PK Monday , March 18, 2024

ARAB NEWS Pakistan

PAKISTAN SAUDI ARABIA MIDDLE EAST WORLD BUSINESS OPINION LIFESTYLE SPORT JOBS

LATEST NEWS / Pakistan : SIFC, Saudi company ink agreement to cultivate 5,000 acres of cattle fodder

Home / Azerbaijan's president says peace with Armenia is closer than ever

Azerbaijan's president says peace with Armenia is closer than ever

Azerbaijani President Ilham Aliyev (R) and NATO Secretary-General Jens Stoltenberg deliver press statements following their talks in Baku on March 17, 2024. (Azerbaijani presidency/handout via AFP)

Short Url https://arab.news/jg45s

Latest Updates

Pakistan replaces power minister a week after new cabinet sworn in

Pakistani airstrikes target suspected Pakistani Taliban hideouts in Afghanistan, officials say

Pakistan's SIFC, Saudi company ink agreement to cultivate 5,000 acres of cattle fodder

As Gaza war rages, Pakistan to host UN event today on women under foreign occupation

IMF to conclude four-day review of Pakistan's bailout program today

Recommended

2

SƏS

№ 052 (6977)

20 mart 2024-cü il.
Qiyməti 60 qəpik

# Təbiətin və kainatın töhfəsi – NOVRUZ!



4

## pik nöqtəsinə çatıb



14

## Sosial şəbəkələrə giriş şəxsiyyət vəsiqəsi ilə olacaq?



16

## Novruz bayramında insanların axını necə təmin olunacaq?



9

## Fransa bəşəriyyətin varığına təhlükə yaradan dövlətə çevrilir



11

## Bu gündən Azərbaycanda 7 günlük Novruz tətili başlayır



16






*"Öz mənşəyini tariximizin dərin qatlarından alan qədim Novruz bayramı ulu babalarımızın yüksək həyat eşqini, zəngin mənəviyyatını, geniş dünyagörüşünü və gələcəklə bağlı nikbin düşüncələrini dolğun təcəssüm etdirir. Onda cəmiyyətin təbiətlə vəhdətinin və insanlığa xas ali dəyərlərin – xeyirxahlığın, mərhəmətin, şəfqətin təntənəsi vardır.*

# Bütöv Azərbaycana Novruz gəlir

*Prezident İlham Əliyev: "Yaz fəslinin yeniləşdirici ab-havası daha güclü Azərbaycan naminə hər birimizin qurub-yaratmaq əzmini artırır"*

Milli özünüdərkin təşəkkülündə mühüm rol oynamış bu əziz bayram yurdumuzda, yüz illər əvvəl olduğu kimi, indi də xoş ovqatda rəngarəng mərasimlər və çoxsaylı el şənlikləri ilə qarşılanır". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə xalqımızı təbrikində bildirib.Novruz bayramı təbiətlə - su, od, torpaq, yel ilə bağlı dörd əsas arxaik xüsusiyyətləri özündə saxlamaqla yanaşı, cəmiyyətdə humanist insani münasibətlərin məntiqini ifadə edir. Xalqımız üçün əziz olan bu bayramı - əbədiyaşarlıq rəmzi olan Novruz bayramını qeyd edirik. Elimizə, obamıza Novruz gəlib. Yeni gün, yeni müjdə gəlib. İlıq nəfəsi ilə elimizə yaz gəlib. Yazın gəlişi ilə bütün canlı təbiət yenidən oyanıb. Soyuq qış günlərindən sonra yazın gəlməsi insanlarda böyük əhvali-ruhiyyə yaranıb. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğunu görürük. Prezidentin təbrikində qeyd olunub ki, novruz ənənələrimiz çoxəsrlik mədəni keçmişinə həmişə xüsusi ehtiram göstərmiş müdrik xalqımızın bəşər sivilizasiyasına misilsiz töhfələrindəndir: "Əcdadlarımızın müqəddəs yadigarı olan bu ənənələrin qorunub layiqincə yaşadılması və sonrakı nəsillərə çatdırılması hər bir azərbaycanlının vətəndaşlıq borcudur".

Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, digər türk dövlətlərində və bir çox qonşu ölkələrdə Novruz Bahar bayramı kimi qeyd olunmaqdadır. Orta əsr müəllifləri Şərq ölkələrində İslam dini yayıldıqdan sonra da Novruz bayramında yaz ənənələrinin, əkinçilik təqvimi etiqadlarının möhkəm yer tutduğunu göstərirlər. Novruz bayramı haqqında müxtəlif rəvayətlərə, onun yaranması səbəblərinə, bu bayram münasibətilə xalq arasında yayılmış adət-ənənələrə yazılı nümnələrdə rast gəlirik. Novruzun gəlişi klassik Şərq, o cümlədən Azərbaycan poeziyasında geniş yayılmış "Bahariyyə" adlı lirik şeirlərdə də təsvir və tərənnüm edilir.

### MİLLİ DƏYƏRLƏRİMİZƏ, ADƏT VƏ ƏNƏNƏLƏRİMİZƏ DÖVLƏTİMİZ TƏRƏFİNDƏN VERİLƏN QİYMƏT

Azərbaycan xalqı müstəqilliyini bərpa etdikdən sonra, xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər



Əliyevin bilavasitə səyləri nəticəsində Novruz bayramı dövlət bayramı elan olunmuş, şəxsən Onun iştirakı ilə milli bayramımız ümumxalq şənlikləri çərçivəsində yüksək təmtəraqla qeyd edilmişdir.

Ümummilli Lider Heydər Əliyevin adət-ənənələrimizin və milli-mənəvi dəyərlərimizin qorunması sahəsində fəaliyyətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin göstərişi və tapşırığı əsasında hər il dövlət və milli bayramlarımız, xüsusilə, Novruz bayramımız ildən-ilə daha yüksək təmtəraqla qeyd edilir. Novruz şənliklərində dövlət başçısının iştirak etməsi bayram təntənələrinə əlavə rəng qatmaqla yanaşı, eyni zamanda, hakimiyyət-cəmiyyət münasibətlərinə müsbət təsirini göstərir. Bu gün artıq müstəqil dövlətimizdə Novruz bayramı dövlət səviyyəsində qeyd olunur. Bu bizimi milli dəyərlərimizə, adət və ənənələrimizə dövlətimiz tərəfindən verilən qiymətdir. Dövlətin milli-mənəvi dəyərlərimizə olan münasibəti onun prioritet istiqamələrdəndir. İslami, milli dəyərlərə yeni prizmadan baxış ictimai düşüncənin formalaşmasında özünü göstərir. Bu amillər zaman-məkan kontekstində həllini tapır. Müasir dünyada baş verənlər qloballaşma və inteqrasiya prosesində ölkəmizin uğurlu gələcəyini təmin etmək üçün tarixi köklərimizə söykənir.

Xalqın etnik tarixi inkişafı bir çox maddi və mənəvi amillərlə tənzimlənən mürəkkəb bir prosesdir. Son illərdə Azərbaycanın milli-mənəvi mədəniyyətinin tarixi mənzərəsinə nəzər salaraq, onun əsas inkişaf vasitələrini üzə çıxarmağa çalışsaq, hər şeydən əvvəl, mövcud amillərin rol oynadığını görərik. Dünyada milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutub. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub-saxlaya bilmişdir. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq, əsrimizə və yeni yüzilliyə qədər gəlib çatmışdır.

Hər il müsəlman dünyasının həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü və adət-ənənələrini özündə yaşadır. Xalqın erkən düşüncəsində yaratdığı çərşənbələrlə bağlı ayin və etiqadları, adət-ənənələri yaşatmaq hər kəsin mənəvi dünyasının tələbatından irəli gəlir.

### QƏLBLƏRİ NURLA DOLDURAN NOVRUZ BAYRAMI

Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının günü-gündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır. Beynəlxalq ictimaiyyətin diqqət və maraq mərkəzində olan, Azərbaycan xalqının adət və ənənələrini, milli-ənənəvi xüsusiyyətlərini özündə əks etdirən, soydaşlarımıza və ölkə vətəndaşlarımıza sevinc bəxş edən Novruz bayramı dövlət səviyyəsində qeyd olunur. Xalqımız bu gözəl bayramı gözəl nəticələrlə, yaxşı əhval-ruhiyyə ilə qarşılayır. Təbiətin insanlara töhfəsi olan Novruz bayramının hər gəlişi əsrlərdən bəri Azərbaycanda bolluğun, bərəkətin, xeyirxahlığın və birliyin təcəssümü kimi qəbul edilmişdir. Gecə ilə gündüzün bərabərləşdiyi ilk bahar günündə yurdumuza qədəm qoyan bu bayram insanları daim birliyə, sülhə və əmin-amanlığa çağırır. Əsrlərin sınağından çıxan Novruz milli adət və ənənələrimizi nəsillərdən-nəsillərə ötürərək bu günlərə gətirib çıxaran bayram kimi əhəmiyyətlidir.

Azərbaycan xalqı artıq dördüncü ildir ki, daha böyük sevinc və yüksək əhvali-ruhiyyə ilə bayramı qarşılayır. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, şanlı Ordumuzun gücü ilə işğaldan azad edilən əzəli-əbədi torpaqlarımızda – Bütöv Azərbaycanda Novruz sevinci yaşanır, bayram tonqalları qalanır. Cənab Prezidentin təbrikində bildirildiyi kimi, builki Novruz bayramı ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası şəraitində həyatımızın yeni mərhələsinin başlanğıcına təsadüf etməsi ilə əlamətdardır: "Yaz fəslinin yeniləşdirici ab-havası daha güclü Azərbaycan naminə hər birimizin qurub-yaratmaq əzmini artırır. Əminəm ki, azadlığına qovuşmuş əzəli torpaqlarımıza əbədi qayıdışımızı qalibiyyət duyğusundan aldığımız böyük ruh yüksəkliyi ilə ən qısa zamanda uğurla gerçəkləşdirəcəyik.

Qəlbləri nurla dolduran Novruz bayramının hər evə, hər ocağa bol sevinc, ruzi bərəkət və firavanlıq gətirməsini diləyirəm".

Novruz bayramınız MÜBARƏK! Bu bayram hər bir ailəyə bol ruzi və sevinc bəxş etsin!

***Zümrüd BAURAMOVA***

# Beynəlxalq mətbuat Azərbaycan Prezidentinin NATO-nun Baş katibi ilə görüşündən yazır

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-nun Baş katibi Yens Stoltenberq ilə mətbuat bəyanatında səsləndirdiyi fikirlər beynəlxalq mətbuatın diqqətini özünə çəkib. Belə ki, "Reuters", "Tass", "Daily Sabah", "US News", "Arab News", "Mehr News", "The Business Standard" və digər media orqanları mövzu ilə bağlı materiallar dərc ediblər.***










Məqalələrdə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanla münasibətlərə dair "biz sülhə heç vaxt olmadığımız qədər yaxınıq" sözləri ön planda dayanıb. Dövlətimizin başçısının hazırda Ermənistanla sülh danışıqlarının fəal mərhələsinin aparıldığına dair sözləri də mətbuatın diqqət yetirdiyi əsas açıqlamalar arasında yer alıb. Ölkə Prezidentinə istinadla qeyd edilib ki, Azərbaycan Ermənistanla sülh danışıqlarını davam etdirməyə hazırdır, çünki regionda qeyri-sabitliyə son qoymağın vaxtı artıq yetişib.

Məqalələrdə, həmçinin diqqətə çatdırılıb ki, NATO-nun Baş katibi Yens Stoltenberq isə öz növbəsində sülh sazişinə heç vaxt olmadığı qədər yaxınlıqla bağlı Azərbaycan Prezidentinin sözlərini yüksək qiymətləndirib. O, dayanıqlı sülh sazişinə nail olmaq üçün həmin fürsətdən istifadə edilməsində tərəfləri dəstəkləyəcəyini də ifadə edib.

Qeyd edilib ki, ötən ilin dekabrından Cənubi Qafqazın bu iki ölkəsi arasında sülhə nail olmaq məqsədilə birgə bəyanatların verildiyi və indiyədək Berlində ikigünlük danışıqlar da daxil bir neçə görüşlər baş tutub. Məqalələrdə, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə XI Qlobal Bakı Forumu, həmin Forumun tarixi və mövzuları barədə də məlumatlar dərc edilib. Qeyd olunub ki, builki Forumda dünyanın 56 ölkəsindən 400-dən artıq nümayəndə iştirak edib.

Bundan başqa, Səudiyyə Ərəbistanı Krallığının nüfuzlu "Independent Arabia", "Əl-Mədinə", "Saudiwadi", "Dora" qəzetlərində və xəbər saytlarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-nun Baş katibi Yens Stoltenberq ilə görüşü geniş işıqlandırılıb. Ölkəmizin Səudiyyə Ərəbistanındakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, materiallarda dövlətimizin başçısının görüşdən sonra mətbuata verdiyi bəyanatın əsas məqamları yer alıb. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla sülh sazişi bağlamağa həmişəkindən daha yaxın olduğunu vurğulayıb. Öz növbəsində, Stoltenberq iki ölkə arasında sülhə doğru addımı alqışladığını bildirib. NATO-nun rəhbəri Azərbaycanın liderinə müraciətlə bildirib ki, "sülh sazişinə həmişəkindən daha yaxın olduğunuz barədə sözlərinizi yüksək qiymətləndirirəm... Mən Sizi ancaq bu fürsətdən istifadə edərək Ermənistanla uzunmüddətli sülh razılaşması əldə etməyə təşviq edə bilərəm".

Xəbərlərdə, həmçinin Ermənistan-Azərbaycan münaqişəsinin tarixi və sülh danışıqlarının hazırkı mərhələsi haqqında məlumat verilərək bildirilir ki, 2023-cü ilin dekabrında Cənubi Qafqazdakı iki qonşu ölkə birgə bəyanat yayaraq sülh razılaşması əldə etmək istədiklərini açıqlayıblar. Hazırda danışıqlar davam edir və onların sonuncusu cari ilin fevral ayında Berlində baş tutub.

Səudiyyə Ərəbistanı ictimaiyyətinə məlumat verilib ki, xristian Ermənistan və müsəlmanların çoxluq təşkil etdiyi Azərbaycan arasında Qarabağ bölgəsi uğrunda münaqişə 1988-ci ildə başlayıb. Onilliklər boyu davam edən düşmənçilikdən sonra Azərbaycan 2023-cü ilin sentyabrında 1990-cı illərdən bəri erməni separatçılarının nəzarətində olan Qarabağa nəzarəti bərpa edib. Rəsmi Bakı ermənilərin iddialarını təkzib edərək bildirib ki, Qarabağdan qaçan erməniəsilli vətəndaşlar Azərbaycanda qala və cəmiyyətə inteqrasiya edə bilərdilər.

Səudiyyə mediası, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin əldə edilməsi üçün əsas meyarların sərhədlərin demarkasiyası və hər iki tərəfin ərazilərini birləşdirən regional nəqliyyat dəhlizlərinin yaradılması olduğunu bildirib.



# YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib



***Martın 19-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının (ÇXR) Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min arasında görüş keçirilib. Görüşdə Azərbaycan-Çin münasibətlərinin dostluq və etibarlı tərəfdaşlıq müstəvisində uğurla inkişaf etdiyi, bir-birinin milli maraqlarına hörmətlə yanaşan və ərazi bütövlüyünü dəstəkləyən iki ölkə arasındakı qarşılıqlı faydalı əməkdaşlığın mühüm perspektivlərə malik olduğu vurğulanıb.***

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpin iki ölkə arasında əlaqələrin inkişafına xüsusi önəm verirlər. Bunun nəticəsidir ki, strateji xarakter daşıyan və müxtəlif sahələri əhatə edən çoxşaxəli münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Azərbaycan ilə Çin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələri genişləndirməkdə maraqlıdırlar. Eyni zamanda, "Bir kəmər, bir yol" layihəsi və Orta Dəhliz çərçivəsində nəqliyyat-logistika sahəsində əməkdaşlıq böyük önəm daşıyır və yaxşı perspektivlər vəd edir. Söhbət zamanı qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı, faydalı fikir və təcrübə mübadiləsinin aparılması və məhsuldar işbirliyinin dərinləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğu qeyd edilib.

Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin rolu da diqqətə çatdırılıb. 2023-cü ilin may ayında Tahir Budaqovun rəhbərliyi ilə YAP nümayəndə heyətinin Çinə uğurlu səfərini və orada keçirilmiş yüksək səviyyəli görüşləri xatırladan səfir Qo Min "YAP ilə ÇKP-nin fəal dialoqu xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə və çoxşaxəli əməkdaşlığın dərinləşməsinə təkan verir" ,- deyə bildirib. Son illərdə hakim partiyalar arasında qarşılıqlı təmasların artmasının partiyalararası əlaqələrdə artan dinamikanın əyani göstəricisi olduğu diqqətə çatdırılıb.

YAP Sədrinin müavini Tahir Budaqov səfir Qo Minin Azərbaycanda fəaliyyəti müddətində ölkələrimiz arasındakı səmimi dostluq münasibətlərinin və hakim partiyaların qarşılıqlı əlaqələrinin inkişafına verdiyi töhfələrə görə ona təşəkkürünü bildirib və uğurlar arzulayıb.

Minnətdarlığını bildirən səfir Qo Min Çinin etibarlı tərəfdaşı olan Azərbaycanda fəaliyyət göstərməkdən son dərəcə məmnun olduğunu, ölkəmizin inkişafının bundan sonra da uğurla davam edəcəyinə və beynəlxalq münasibətlər sistemində mövqeyinin daha da möhkəmlənəcəyinə inamını ifadə edib. Sonda qarşılıqlı olaraq hədiyyələr təqdim olunub və xatirə fotosu çəkdirilib.




# Rusiya: köhnə komanda ilə gələcəyə

## Prezident seçkilərinin nəticələri ruslar üçün hansı nəticələrə səbəb olacaq?

RAKURS

***Rusiyaya 24 ildir ki, rəhbərlik edən Vladimir Putinin son prezident seçkilərində rekord göstəricisi dövlət başçısına istənilən, o cümlədən qeyri-populyar qərarlar qəbul etmək imkanı verən davamlı sosial həmrəyliyin nəticəsidir. Eyni zamanda, ekspertlərin fikrincə, prezident hələ də Federal Məclisə öz mesajının əhatə dairəsi ilə məhdudlaşacaq. Digər seçki iştirakçıları arasında analitiklər əvvəlki seçkilərdə liberal namizədlərdən daha çox səs toplayan "Yeni İnsanlar"ın namizədi Vladislav Davankovu xüsusi qeyd edirlər.***

Prezident administrasiyasının daxili siyasi blokunda ilkin olaraq müzakirə edilən sonuncu kampaniyanın hədəf göstəriciləri (70%-dən çox seçici fəallığı və 75%-dən çoxu "əsas namizəd"ə səs verib) bir fərqlə artıqlaması ilə yerinə yetirilib. Mərkəzi Seçki Komissiyasının ilkin məlumatlarına görə, seçici fəallığı 77,44% olub, Vladimir Putin isə 87,28% səs toplayıb. Bu, prezident seçkiləri üçün yeni rekorddur: əvvəlki seçki də 2018-ci ildə 67,5% səsvermə ilə 76,7% səs qazanan cənab Putinə məxsus idi.

Rusiyalı ekspert Valeri Fedorov bazar ertəsi Sosial Tədqiqatlar üzrə Ekspert İnstitutunun (STEİ) dəyirmi masasında bu rəqəmləri şərh edərkən qeyd edib ki, əgər əvvəllər "Putin çoxluğu" haqqında danışmaq mümkün idisə, indi seçicilərin həmrəyliyi artıq "Putin çoxluğu" adlandırılır. Sosioloq "fövqəl çoxluq"un yaranmasının səbəbləri arasında qələbə naminə birlik, böyüklük və qürur tələbləri (vətənpərvərlik yüksəlişi), inkişaf və gələcək imici, emosional yüksəliş və amil kimi amilləri müəyyən edib. Politoloq Aleksey Çesnakov da sosial sorğulara istinad edərək daha bir amili - Qərb ölkələrinin siyasətini əlavə edib. Onun sözlərinə görə, seçicilər "Qərbə sərt müqavimətin olmasını və Rusiyaya davamlı təzyiq cəhdlərinin olmasını" istəyirdilər.

Ekspertlər elektoratın səfərbərliyi amilini xüsusi qeyd edirlər. Hətta 2018-ci il seçkilərinə hazırlıq zamanı Kremlin daxili siyasi bloku səfərbərlik mexanizmlərinin təkmilləşdirilməsinə böyük diqqət ayırıb və bu prosesin əlamətlərini 2024-cü il kampaniyası ərəfəsində görmək mümkündür. Məsələn, Vahid Rusiya səfərbərlik bazasını təmizləmək və genişləndirməkdən dəfələrlə danışıb. "Regionlar onlara məxsus olan inzibati səfərbərlik üsulları ilə təkrar sığortalanıb. Hamı başının üstündən tullanmalı idi", - deyə Sankt-Peterburq Siyasət Fondunun rəhbəri Mixail Vinoqradov qeyd edir. Eyni zamanda, onun fikrincə, hökumətin bu kampaniya ilə bağlı tapşırıqları siyasi deyil, daha çox texniki xarakter daşıyırdı və cəmiyyətdə çətin ki, kimsə seçkinin nəticələrini şübhə altına alsın: "Son illər biz seçkinin nəticələrini şübhə altına almağa doğru rəqəmlərin lütfündən çox, mütləqləşdirilməsi tendensiyasını müşahidə edirik".

Əminliklə demək olar ki, bu, "sovet vaxtı deyil" və kimsə planı aşmaq prosesində iştirak etməyəcək: "Belə gözləntilərin olduğunu güman etsək belə, onların hamısı tamamilə rasional xüsusiyyətlərdən, sosioloji proseslərlə bağlı mühakimələrdən irəli gəlir. Üstəlik, onlar birləşmirlər: hər bölgənin öz "vəzifəsi" var. Seçkinin nəticələri müxtəlif amillər, o cümlədən "emosional və vətənpərvərlik" səbəbindən proqnozları üstələyib. Prezidentin əldə etdiyi nəticə ona qeyri-populyar qərarlar qəbul etmək imkanı verir. Əslində, belə qərarlar hətta elan olunub. Razılaşmaq olar ki, seçkilərdə əldə olunan nəticə Putinə istənilən hərəkətə görə "kart-blanş" verir. Hətta kiminsə bu barədə şübhəsi olsa belə, rəsmi olaraq elan edilən və ictimaiyyətə açıqlananlar artıq tamamlanmışdır, qalan hər şey iman və təfsir məsələsidir. Prezidentin aldığı mandat onun Federal Məclisə müraciətində müəyyən edilmiş çərçivə ilə ciddi şəkildə müəyyən edilir.

**Səssiz, küysüz**

Prezidentlik kampaniyasının başlanğıcında Kremlin göstərişləri ilə bağlı məlumatlı mənbələr və hakimiyyətlə işləyən ekspertlər bildiriblər ki, seçkilər sakit və "siyasi şou" elementləri olmadan keçirilməlidir. Bu, sorğular zamanı müəyyən edilən vətəndaşların istəkləri ilə əsaslandırılıb. Sonda belə oldu: təşviqat heç bir parlaq siyasi döyüşlər və gərgin rəqabət olmadan keçdi və ekspertlər müxalifət namizədlərinin proqramlarının və təbliğatının zəifliyini dəfələrlə qeyd etdilər. Sosial Tədqiqatlar üzrə Ekspert İnstitutunun dəyirmi masasında Aleksey Çesnakov "Rəqabətlilik təmin edildi, lakin alternativlik, eləcə də müxalifət namizədləri arasında strategiyanın mövcudluğu göz qabağında deyildi" deyib. Həmin tədbirdə çıxış edən politoloq Pavel Danilin, "Bütün namizədlər sivil, təmiz, mədəni kampaniya apardılar və bu, əlavə seçiciləri cəlb etdi" deyib.

Səsvermədən xeyli əvvəl ekspertlər aralarındakı fərqin minimal olacağını və demək olar ki, hər kəsin ikinci ola biləcəyini proqnozlaşdırmışdılar. Nəticədə, Nikolay Xaritonov (KPRF) 4,31% (təxminən 3,7 milyon səs) ilə gümüş qazandı, Vladislav Davankov (Yeni insanlar) yarım faizdən də az geri qaldı - 3,85% (3,3 milyon), Leonid Slutski (LDPR) isə 3,2% (2,7 milyon) ilə siyahını bağlayıb. Yəni, ikinci və dördüncü yerlər arasındakı fərq 1%-dən bir qədər çox olub və bir milyon səs təşkil edib. Bununla belə, ekspertlər bu rəqəmlərdən bəzi nəticələr çıxarıblar. Məsələn, cənab Çesnakov LDPR-nin 2026-cı il Dövlət Dumasına seçkilərdəki perspektivlərini "aydın deyil" adlandırıb.

Lakin Vladislav Davankovun nəticəsi, əgər onu liberal spektrin siyasətçisi hesab etsək, ekspertlər tərəfindən kifayət qədər yüksək hesab edilib, çünki o, həm səs, həm də faiz baxımından 2018-ci il seçkilərində Kseniya Sobçak və Qriqori Yavlinskinin cəmindən çox toplayıb. (müvafiq olaraq 1,68% və 1,05%). Yeri gəlmişkən, bəzi sistemli olmayan müxalifətçilər də cənab Davankova səs verməyə çağırıblar. Düzdür, Yevgeni Minçenko onu liberal namizəd hesab etmir: "O, daha çox vətənpərvər bir mütərəqqi insandır. Bu, hələ də Qərbdə indi liberalizm adlanan şeylə tam uyğun gəlmir. Bu, sahibkarlıq gündəliyinin, gənclərin gündəliyinin, inkişaf gündəliyinin və normallaşma gündəliyinin birləşməsidir - və eyni zamanda vətənpərvərlik mövzusunda çox dəqiq vurğudur.

Bütövlükdə parlament müxalifətindən olan namizədlərə gəlincə, onların hazırkı seçkilərdəki çıxışlarının nəticələrinə əsasən nəticə çıxarmağın mənası yoxdur. Onların nəticələrindəki fərq "statistik xəta hüdudlarındadır" və bu məntiqlidir. Bütün diqqət birinci şəxsə verilməli idi, qalanları isə "qədim xor" rolunu oynamaq üçün buraxılmalı idi. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun dediyi kimi, prezident seçkilərində rekord sayda fəallıq prezident Vladimir Putinə verilən dəstəyin səviyyəsindən xəbər verir. Son seçkilərdə seçicilərin 77,44 faizi iştirak edib. Prezident seçkilərində iştiraka görə əvvəlki rekord 1991-ci ildə RSFSR prezident seçkilərində (74,66%) olub.

Prezidentin sözçüsü deyib: "Rekord fəallıq həqiqətən də prezidentə verilən dəstəyin səviyyəsindən xəbər verir". Ondan Mərkəzi Seçki Komissiyasının seçkilər zamanı işinə qiymət verməsi xahiş edildikdə, Dmitri Peskov kampaniyanın rəsmi nəticələrini gözləməyi təklif edib. "O zaman biz həmkarlarımızı uğurları münasibətilə təbrik edəcəyik. Mərkəzi Seçki Komissiyası seçkilərin xüsusi elan olunana qədər kifayət qədər gərgin fəaliyyətini davam etdirir", - deyə o bildirib.

Beləliklə, Rusiya növbəti 7 ilə öz prezidentini seçdi. Qərb isə Putinin legitimliyini tanımaq istəmir. Rusiyalı politoloqların dediyi kimi, onlar anlamaqda çətinlik çəkirlər ki, bu seçim rusiyalılara aiddir. Putin nə ABŞ-ın, nə Fransanın, nə də Almaniyanın prezidenti seçilib, o Rusiya dövlətini idarə edir.

***V.VƏLİYEV***




***Azərbaycan xalqı çoxəsrlik tarixə malikdir. Bu tarixdə milli soy-kökümüzdən qaynaqlanaraq fərdi xüsusiyyətimizə çevrilən elə adət-ənənələrimiz vardır ki, onlar kimliyimizi ortaya qoyan, sübut edən amillərdir. Və əsrlərdir, yaşadılaraq bu günümüzədək gəlib çıxan adət-ənənələrimiz müasir dövrümüzdə xalqımızın tarixi kökünü bir daha açıqlayır, bu millətin tarix qədər yaşı olduğunu təsdiqləyir.***






# Təbiətin və kainatın töhfəsi – NOVRUZ!

70 il sovet imperiyasının müstəmləkəsində olan bir xalq öz tarixini, milli adətlərini, mentalitetini çətinliklərlə üzləşə-üzləşə saxlaya bilmişdirsə, bu onun göstəricisidir ki, həmişə soy-kökünə sadiq olan azərbaycanlılar onu qorumağı bacarmışlar. Hələ imperiyanın 15 müttəfiqindən biri olan Azərbaycanı xüsusi məngənədə saxladığı, 70 ilin hər saatında, anında xalqımıza milli bayramlarını, adət-ənənələrini yasaq etdirməyə çalışdıqları, bunlardan bəhs edənlərin repressiyası kimi geniş mövzulara toxunsaq, deməyə haqqımız daha çox olar ki, Azərbaycan xalqı öz tarixi keçmişini, sözün əsl mənasında, qəhrəmancasına qorumuşdur.





Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli dəyərlərimizə verilən qiymət onu millətimiz üçün daha əziz etmiş, illərlə gizli şəraitdə qoruyub saxladığımız bayramların ölkə səviyyəsində, elliklə qeyd olunmasına zəmin yaratmışdır. Ulu Öndərimiz deyirdi: "Elə vaxtlar, zamanlar olubdur ki, bu bayramı xalqımızın əlindən almaq istəyiblər, bu bayramı keçirməyə mane olmaq istəyiblər. XX əsrdə biz bu dövrü yaşamışıq. Ancaq Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir".

Artıq neçə illərdir ki, Novruz bayramı çox çətinliklə əldə etdiyimiz müstəqil ölkəmizdə təmtəraqlı şəkildə qarşılanır. Respublikamızın hər yeri–küçə və meydanları, parkları qədim milli bayramımız üçün bəzədilir. Hər kəs ən sevimli bayramı olan Novruzu ürəyincə qeyd edir. Oxuyan, oynayan, yallı gedən, milli oyunlarımızı, mərasimlərimizi, adətlərimizi nümayiş etdirən hər kəslə yaşanır, yaşadılır qədim bayramımız Novruz. Yaşadıla-yaşadıla dünəndən bu günə, bu gündən sabaha – yeni nəsillərə ərməğan edilir.

## Novruz barədə nə bilirik...

Novruz xalqımızın böyük mərasimlərindən biridir. Bu mərasim hər il mart ayının 20-21-də keçirilir. Şərq xalqlarının erkən əkinçilik, məhsul bolluğu etiqadları ilə bağlı bu mərasim hələ qədim zamanlardan el arasında böyük bayram kimi qeyd edilib. Xalq bu bayrama hazırlığa Novruza 40 gün qalmışdan başlayardı. Əvvəl çərşənbəyə qədərki 10 gündə hər yerdə təmizlik işləri aparılar, sayaçılar həyətbəhəyət gəzib dölün başlanması ərəfəsində sayadan pay alıb, pay verərdilər.



Novruzaqədərki birinci, ikinci, üçüncü və dördüncü çərşənbələrin də özünəməxsus şənliyi, ayini, etiqadı olardı. Axır çərşənbədə isə Novruz şənlikləri daha böyük təntənə ilə qeyd edilər, bir-birindən rəngarəng nəğmələr oxunar, ayinlər icra edilər, tamaşalar, oyunlar göstərilərdi. Bu çərşənbələrin də öz adı, adəti var. Birinci çərşənbə "Əzəl çərşənbə"dir. Buna "Yalançı çərşənbə" də deyərlər. Həmin çərşənbədə yandırılan tonqalın külünü göyə sovurub ucadan söyləyərlər: "Kiçik çillənin gözünə kül ələyirik!" İkinci çərşənbə "Muştuluqçu (müjdə verən) çərşənbə"dir. Bu çərşənbədə hamı bir-birinə muştuluq verər ki, çillə tamam-kamal sovuşub gedib. Sonra "Gül" çərşənbə gəlir. Bu çərşənbədə təmizlik eləmək, ev-eşiyi, paltar-palazı çırpıb, silib "gülə döndərmək" qaydadı. Qalır dördüncü – bayramdan qabaqkı çərşənbə. Həmin çərşənbə "İlaxır çərşənbə" sayılır. Ulularımız həftənin günlərini uğuruna, sayasına görə sınaqdan çıxarıb bir parasını ağır, bir parasını da yüngül sayıblar. Həmin hesabla ən ağır gün çərşənbə axşamı, ən yüngül, sayalı gün cümə axşamı ilə cümədir. Ağır olduğundan çərşənbə axşamına baba-nənələrimiz "duz günü" deyərdilər. Həmin gün ev binəsi qoymaq, əkinə-biçinə başlamaq, toy-düyün etmək məsləhət bilinməyib. İşin binəsini cümədə qoymaq uğurlu sayılıb. Çərşənbə axşamı ağır gün sayıldığından ilin axırıncı həftəsinin həmin günündə tonqal qalayıb, odun üstündən atıla-atıla cəmi ağrı-acıları tökər, yeddi cür şirin nemət dadıb, nəhs gündən qurtular, sonra da xoş ovqatla o biri günlərə qədəm basıb Novruzu qarşılayarlar.



***Ardı Səh. 6***









# Təbiətin və kainatın töhfəsi – NOVRUZ!

Əvvəli-Səh-5

Deyərlər ki, nə qədər ağrı-acımız, qada-balamız varsa, hamısını tökdük axır çərşənbə tonqalının üstünə.

Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Novruz yazın gəlişinə, torpağı yeni əkinə, yeni məhsula, bolluğa, firavan həyata çağırış bayramıdır.

Daha qədimlərdə təbiətin oyanmasına xoşbəxtlik və səadət rəmzi kimi baxan insanlar yazın gəlişi, havaların istiləşməsi, yeni əkinçilik mövsümünün başlanması, təbiətin yenidən canlanması, yaşıllaşması ilə bağlı müxtəlif nəğmələr, oyunlar, mərasimlər yaratmışlar. Bütün bu ilkin, ibtidai sənət nümunələri isə sonralar Novruz ətrafında cəmləşmişdir.

Novruz mərasimini bəziləri yanlış olaraq Zərdüştlüklə, digərləri isə İslam dini ilə bağlamağa cəhd göstərmişlər. Lakin bütün cidd-cəhdlərə baxmayaraq, Novruz mərasimlərində dinlərdən qabaqkı təsəvvürlər tam aydınlığı ilə əks olunmaqdadır. Bu bayramın qədim insanların bolluq, bərəkət, əmək, əkinçilik və məişət həyatı ilə bağlı yarandığını əks etdirən solmaz şəfəqlər zaman keçdikcə daha qüdrətlə şölələnməkdədir.

## Novruzu nə vaxtdan qeyd ediblər

Qədim bir türk əsatirində bu suala cavab tapmaq olar: Oğuz oğlu zağada yaşayanda qışdan yaman qorxardı. Ona görə də ilin üç fəslində qışa tədarük görər, dünyanın naz-nemətini zağaya yığıb gətirərdi. Bir il qış uzun çəkdi, onun azuqəsi qurtardı. Çarəsiz qalan Oğuz oğlu Böyük çillənin otuzuncu günü zağadan bayıra çıxdı ki, yeməyə bir şey tapıb gətirsin. Nə qədər gəzdi, dolandı, heç nə tapmadı. Saqqalı buz bağladı, əli-ayağı dondu. Korpeşman evə qayıdanda yolda bir qurd balasına rast gəldi.

– Oğuz oğlu, bu qarda-boranda haradan gəlirsən?

Oğuz oğlu başına gələn əhvalatı danışdı. İlin aylarından gileyləndi. Dedi ki, elə ay var yaxşı dolanırıq, elə ay var acından qırılırıq. Ayları təriflədi, ayları yamanladı.

Qurd balası dedi:

– Ey Oğuz oğlu, qarşıdakı yolayrıcında səni bir sürü qoyun, bir qucaq sünbül, bir cəhrə, bir də əl dəyirmanı gözləyir. Onları alıb zağana apararsan. Qoyunu kəsib ətini yeyər, yunundan cəhrədə ip əyirər, özünə paltar toxuyarsan, dərisini əyninə geyinər, sünbülün dənini də əl dəyirmanında çəkər, undan çörək bişirərsən, yaza çıxarsan. Ancaq sənə verdiyim əmanətlərdən gərək muğayat olasan. Sünbülü və qoyunu özün artırarsan. Quzuları əlinin içində saxlayıb böyüdərsən. Sünbülün dənini yerə səpib, onu alnının təri ilə suvararsan. Dediklərimə əməl eləyə bilməsən, yaşamaq sənin üçün çətin olacaq.

Oğuz oğlu yolayrıcına gəldi. Qurd balasının dediklərini götürüb zağaya gətirdi. Qışı kefi kök dolandı. Yazda sürünü dağlara yaydı, sünbülün dənini torpağa səpdi, gecə-gündüz sürülərin, taxıl zəmisinin qulluğunda dayandı. Oğuz oğluna bir bolluq üz verdi ki, gəl görəsən.

Deyirlər, oğuzlar elə o vaxtdan həmin günü ən əziz bayramlardan hesab eləmişlər. Həyatında yenilik başlandığından, o günə yeni gün adını verən Oğuz oğlu onu hər yaz bayram etmişdir. O gündən Novruz xalq arasında firavan yaşayışa, bolluğa, bərəkətə, yaradıcı əməyə çağırış rəmzinə çevrilmişdir.

Elə o gündən xalq bayrama 40 gün qalmış hazırlıq, təmizlik işlərinə başlayıb, Novruzqabağı nəğmələrini yaradıb. Bayramın bütün etnoqrafik cizgiləri Novruz nəğmələrində öz əksini tapıb. "Səməni", "A yel baba, yel baba", "İldə göyərdərəm səni", "Qodu-qodu", "Yağış gəlir" nəğmələrində Novruzun bütün detalları əks olunur.

Xalq özünün həyat, sağlamlıq, təmizlik, əmək vərdişləri ilə bağlı bir çox ayin, etiqad və mərasimlərini Novruzla bağlayıb, beləliklə də, onların el içərisində geniş yayılmasına və kütləviləşməsinə nail olub. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Bu bayramda hamı özünə təzə paltar alar, təzə paltar tikdirər, qızgəlinlər təzə çəkmə, al-əlvan don geyinərlər.

Novruz adətlərində ulu babalarımızın ən müdrik dünyagörüşü, humanist baxışları, həlim, qayğıkeş təbiəti özünü göstərir. Bu nümunələrdə təmizliyin əhəmiyyəti, onun təbliği, yaxşılıq, xeyirxahlıq, Vətəni sevmək kimi yüksək mənəvi-əxlaqi keyfiyyətlər əks olunub.

## Novruz müasir dövrümüzdə

Novruz – bu, böyük bir tarixdir. Yaşanan, yaşadılan və yaşadılacaq bir tarix. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi: "Necə ki, ötən nəsillər bu bayramı adətləri ilə yaşadıb, bizə təhvil vermişlər, bizlərin – müasir dövrün insanlarının da vəzifəsi ondan ibarətdir ki, bu adətləri olduğu kimi gələcək nəsillərə çatdıraq. Novruz bayramı bizim bütün bayramlarımızdan əzizdir. Bu bayram çox qədim tarixə malikdir və əcdadlarımızın bizə töhfəsi, onlardan qalmış mirasdır. Novruz bayramı heç bir tarixi hadisə, yaxud heç bir şəxsiyyətin adı ilə, onun fəaliyyəti ilə bağlı deyildir. Bu bayram təbiətin qanunları ilə, kainatın qanunları ilə əlaqədar olan bir bayramdır. Gündüz ilə gecənin bərabərləşməsi günü, baharın ilk günü Novruz bayramıdır. Bunlara görə Novruz bayramı bir çox başqa bayramlardan fərqlənir və bu, bizim, məhz Azərbaycan xalqının bayramıdır. Qədim zamanlardan bəri və bu gün də bu bayramı ən çox sevən, ən uca tutan Azərbaycan xalqıdır".

Xalqımızın qədim milli bayramı olan Novruzun müasir dövrümüzdə bütün adət-ənənələri ilə yadda qalması, davam etdirilməsi bu bayramın azərbaycanlılar üçün tarixi bayram olduğunu sübut edir. Qədim tarixi mənbələrdən, Novruzla bağlı tədqiqatçı alimlərin əsərlərindən oxuduğumuz yazılarda bu bayramın qədim dövrlərdə necə başlandığı, davam etdirildiyi, hansı adətləri özündə əks etdirdiyi ilə tanış olduqca və bütün bunlara müasir dövrümüzdə də şahid olan bizlərdə belə bir təəssürat yaranır ki, xalqımız öz tarixi keçmişinə, adət-ənənələrinə, mentalitetinə həmişə hörmətlə yanaşmış, ona sadiq qalmış və yüksək dəyər vermişdir.

Bu gün də Novruza qədər təbiətin dörd ünsürü – su, od, külək və torpaqla bağlı çərşənbələrin qeyd olunmasını, bütün evlərdə, bağ-bağatlarda "külə-külə" adəti ilə təmizlik işlərinin aparılmasını, Novruza 15 gün qalmış səməni cücərdilməsini, ilin axır çərşənbəsində tonqal çatıb, el-elatın həmin tonqalın başına yığışaraq deyib-gülməsini və 20-21 martda Novruzun – yeni günün həyatımıza daxil olmasının təntənəli şəkildə qeyd edilməsini, əsrlər öncəki adət-ənənələrimizin olduğu kimi yaşadılıb bu günə qədər çatdırılmasını böyük mənəvi sərvətimiz kimi dəyərləndirmək olar.

Dövlətimizin başçısı cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə, nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq".

Qədəmlərin mübarək, ulu Novruz! Qoy bu Novruz həyatımıza, elimizə-obamıza xoşbəxtlik, səadət, hər bir ailəyə sevinc dolu günlər, bol ruzi, ölkəmizə sülh, əmin-amanlıq, davamlı inkişaf gətirsin.

***Mətanət Məmmədova***

# İtirdiyimiz xüsusiyyətlər: qonaqpərvərlik



**IV YAZI**

Özümü, həyatı dərk edəndən bəri evimizdə həmişə qonaq otağı olub. Otağın adı elə beləcə idi, "qonaq otağı". O otaq evə gələn, gecələyən qonaqlar üçün idi. Ən yaxşı yorğan-döşək, ən keyfiyyətli kilim-palaz, ən gözəl qab-qacaq o otaqda olurdu. Qonaq otağındakı dolabda daim çərəz, şokolad olurdu, qəfil gələn qonaq üçün hazır saxlanırdı. İpək kimi döşəağılar, qar kimi əl-üz dəsmalları, yupyumşaq məstlər, paketi açılmamış qəttəzə alt paltarları – hamısı qonaq üçün hazır saxlanılırdı.

Çox olub gecələr qəfil qonağımızın gəlməyi. Babam göz qırpımında əl havası ilə hindən toyuqcücə kəsər, nənəm 10 dəqiqədə o çolpaları hazır edib süfrəyə gətirərdi. O vaxtdan 30-35 il keçib, indi özüm bir evin anasıyam, amma həmişə nənəmin o cəldliyini xatırlayıram, əli-ayağı görünmürdü evimizə qonaq gələndə. Qonağın təri soyumamış süfrə düzülər, ən əziz nemətlər ortalığa gələrdi. Qonaq evin göz muncuğu, uğuru, bərəkəti idi. Yemıkdən sonra babam hamamın sobasına





od vurar, yoldan gələn qonaq hamamlanıb rahatlanardı.

Bir neçə kitabın müəllifi olan bir yazar xanımla yol yoldaşlığımız olmuşdu illər əvvəl. Söhbətləşmə əsnasında söz-sözü çəkdi, qonaqpərvərlikdən bəhs etdik bir az. Heç sevməmişdiyini, qonaq qəbul etməyin əziyyət və istismar olduğunu dedi. O vaxtadək heç bu barədə fikirləşməmişdim. Həqiqətən qonağa qulluq etməyi istismar hesab edənlər varmış. Bəs siz hansındansınız? Qonağın gəlişinə sevinən, ən əziz təamları süfrəyə düzənlərdən, yoxsa vaxtsız qapı döyülməsindən, qonaq gəlişindən narahat olanlardan?

Qonaqpərvərlik bu gün unudulmaq üzrə olan, gənc nəsil üçün də heç xatırlanmayan ən mühüm milli dəyərlərimizdən biridir. Qonaq evin neməti hesab edilirdi, qonaq qəbul etmək şərəf sayılırdı, qonağın duasının qəbul olunacağına inanılırdı. Qonaqpərvərlik təkcə adət və ənənə deyil, həm də Allaha ibadət növü sayılırdı. Qəfildən gələn qonaq ev sahibinin tanımadığı biri olsa belə ev sahibi tərəfindən "Allah qonağı" deyə qəbul edilir, hörmətdə, qulluqda heç bir əskik olmazdı.

Qonağın kim olmasının, hansı inanca sahib olmasının da fərqi yox idi. Gələn "Allah qonağı", yəni Tanrının göndərdiyi qonaq sayılırdı. Çox xatırlayıram evimizdə yad adamların gecələdiyi günləri. Kəndimizə nəsə satmağa gələnlər, iş-güc dalınca gəlib gecəyə düşən-





lər, gəldiyi evin sahibini evdə tapmayanlar, yolu azıb gələnlər də vardı onların arasında. Xatırlayıram, bir dəfə qaraçı qadınlar qalmışdı evimizdə. Onlar adətən fala baxmağa, dilənməyə gəlirdilər bizim rayonumuza. Bir gün axşamçağı girdilər həyətimizə, nənəm onları çaya, yeməyə qonaq elədi, torbalarını azuqə ilə doldurdu. Qadınlar gecələməyə yerlərinin olmadığını dedi, qaraçı olduqları üçün nənəm çəkindi bir az. O vaxtlar qaraçıların ev sahiblərinə bihuşdarı verdib ev yardıqları, malmülk taladıqları barədə çox şey eşidirdik. Amma yadımdadır, babam "qonaq allah qonağıdır" dedi, nənəmə qonaq otağını açmağı tapşırdı. Onlar gecəni bizdə qaldılar, sabah sübh üzü nənəmin süfrəsində qəlyanaltı edib babama, nənəmə dua edəedə getdilər. Gedərkən babam onların heybəsinə hindən iki çil-çil çolpa da qoydu.

Dünyanın istənilən yerində ev sahibi ola bilərsiniz, qonşularınız, tanışlarınız çox ola bilər, lakin buradakı kimi qonaqpərvər mühit tapmaq çətindir. Məsələn, çətin ki, o ölkələrdə qonaqlar gəlməmişdən bir az əvvəl evdə hamı bir-birinə dəysin, ortalığın səliqəyə salınması üçün ana uşaqlara tapşırıq versin, ata alınacaq şeylər üçün mağazaya qaçsın. Çətin ki, başqa ölkələrdə qonaq üçün ev başmaqları alınıb hazır saxlansın, evin xanımı cehizindəki ən qiymətli qab-qacağı qonaq üçün istifadə etsin.

Günümüzdə bu adətimiz də digərləri kimi yox olmaq üzrədir. Bəzən insanları qınamaq da olmur, maddi problemlər qonaqpərvərlikdən də çox şeyi azaltdı, əskiltdi. Qonağı layiqincə qarşılamağa imkanı olmayanlar üçün qəfil qonaq gəlməsi utanmaq demək oldu, xəcalət demək oldu. Ev sahibləri qonaqdan utanmaqdan, yanında xəcalətli qalmaqdan qorxdu.

Qonaq qəbul etmək qədər qonaq getmək də azaldı, yox deyiləcək qədər oldu. Qonaq getdiyi evdə gülər üz, xoş münasibət görə bilməyənlər bir də qonaq getmək fikrinə düşmədilər. Əvvəl bütöv çörəyini qonşusu ilə bölənlər azaldı, hərə bir qab yeməyini öz evində önünə qoyub yeməyi daha doğru hesab etdi. Paylaşmaq, yardımlaşmaq kimi xüsusiyyətlər də beləcə itib getdi.

Söz vaxtına çəkər deyiblər, xatırladığım xatirələrdən biri də ilaxır çərşənbədə süfrələrimizi birləşdirmək adətimiz idi. Gənc qızların, yeni evli gəlinlərin ən sevdiyi qonaqlıq bu idi. Sonuncu çərşənbə hərəmiz evimizdən ən ləziz təamlardan götürür, bir yaşıdımızın evinə yığışardıq. Birimiz şəkərbura, birimiz qoğal, birimiz paxlava, birimiz boyanmış yumurta, birimiz bayram aşı, o birimiz turşu, digərimiz kompotla gedirdik o süfrəyə. O gecə yatmırdıq, sabahadək gah süfrə başında olardıq, gah tonqal ətrafında. Qonaq yığışdığımız evin kişisi o gecə evində qalmırdı, qızgəlin rahat olsun deyə qohum evində gecələməyə gedirdi. Qonağa olan hörmət, ehtiram idi bu.

Türk xalqlarında, eləcə də bizdə bir adət var – gələn qonağı duz-çörəklə qarşılamaq. Bu gün ölkəmizə rəsmi səfərə gələn dost ölkə liderləri də bu cür qarşılanır, ən əziz adamın pişvazına çıxır duz-çörək. Duz süfrənin dadı, çörək isə bərəkəti – ikisi də gələn qonağın xətrinin nə qədər əziz olduğuna işarədir. Həmçinin, el arasında "qonaq qisməti ilə gəlir", "qəfil qonaq 10 adamın ruzisini gətirir, 1-ni yeyir, 9-nu ev sahibinə hədiyyə edir" kimi məsəllər də var. "Kitabi Dədə Qorqud" dastanında da qonaqpərvərlik, öz malını başqaları ilə bölüşmək ərənlik, igidlik əlaməti sayılıb. İl boyu evi qonaqqaralı olan Salur Qazan ildə bir dəfə nəyi var, nəyi yox, başqalarına peşkəş edərmiş. Qazan xan həmin gün Boyu Uzun Burla Xatunun əlindən tutub evindən çölə çıxar, oğuz elinin əhlinə evindən ürəkləri nə istəsə götürə biləcəklərini deyərdi.

Qonaqpərvərlik bu torpaqlarda var olan yüzlərlə gözəl adətdən biridir. Şərt deyil gələn qonağa üzərində min cür naz-nemət olan süfrə açasan, quş südü, can iliyi qoyasan. Gülərüzlə süzülən bir stəkan çay, açıq ürəklə təklif edilən yavan çörək belə qonaq üçün nemətdir, nemət olmalıdır. Bir süfrə ətrafında toplaşmaq, haləhval tutmaq, söhbətləşmək üçün çeşid-çeşid yeməyə, löyün-löyün təama ehtiyac duyulmamalıdır. Axı məqsəd yeyib-içmək yox, sosiallaşmaqdır, ünsiyyətdir. Ünsiyyətsizliyin pik nöqtəsinə yüksəldiyimiz dövrümüzdə maddi maraqlar üzərində qurulmayan, təmənna güdülməyən bütün münasibətlər cəmiyyət üçün vacibdir.

***Lalə Mehralı***



# Çərşənbə günündə, çeşmə başında...



*Bəlkə də, adı çəkiləndə mənim kimi yüzlərlə Ələsgərsevərin qulaqlarında ilk çığnayan aşığın "Çərşənbə günündə, çeşmə başında, gözüm bir alagöz xanıma düşdü" sevdalı misraları olur. O sevda ki, az sonra həmin gözəl xanımın "nişanlıyam, özgə malıyam" deməsi ilə Ələsgərin qol-qanadının sınıb yanına düşməsi, xəyallarının çeşmə sularında qərq olması bir olur.*

Şair üçün bu bir təsadüf, yoxsa bəxtsizlikmidir, bilmirəm, bizim üçün hələ məktəb illərindən əzbərlədiyimiz ən gözəl qoşma idi. Lakin sonralar öyrənəndə ki, Ələsgər 40 yaşında ailə qurub, onda anladım ki, bəli, "Güllü", "Gülpəri", "Güləndam", "Telli", "Ceyran", "Xurşid", "Müşkinaz.", "Maral"ın hər səfası xoş olsa da, onun ağlını başından alsalar da, "Səni gördüm, əl götürdüm dünyadan", – deyən aşığın qisməti, alın yazısı olmayıblar.

Bəlkə, elə buna görə "Gözü yaşlı, ey füqəra Ələsgər, işi əysik, baxtı qara Ələsgər, olmadı dərdinə çara, Ələsgər, həsrət əlin o dildara yetmədi", – deyib gileyləndi həyata... Bəlkə, elə buna görə divanəyə çevrildi, aşiq aşığı oldu, sözü cilalayıb, düzüb-qoşub qoşma, dodaqdəyməz, cığalı, müstəzad təcnis, müxəmməs, divani, gəraylı, bağlama, həcv və hərbə-zorba, deyişmə, qəzəl, mərsiyə, dastan-rəvayət adlı lələ çevirib bir xəzinə yaratdı Aşıq Ələsgər. Bütün bunlar bəs etməyəndə isə el-el gəzdi, sazını sinəsinə sıxıb həyatının mənasını söyləmələrində, deyişmələrində, bağlamalarında tapdı. Bu yolda müdrikləşdi, aqilləşdi, ağsaqqallaşdı, hər kəsin həsəd, eyni zamanda hörmət etdiyi insan oldu. Məclislər, toylar bəzəyinə çevrildi. Sorağı Azərbaycana, hətta ölkəmizdən kənara yayıldı. Onu görmək, tanımaq, dinləmək üçün insanlar məqam axtarmağa başladılar. Bu da hər kəsə nəsib olmayan bir qismət idi ki, Aşıq Ələsgərlə bir məclisdə ola, onu dinləyə, qarşısındakı aşıqların əlindən sazını almasını izləyə. Çünki Aşıq Ələsgər sıradan aşıqlardan deyildi, "Aşıq olub, diyar-diyar gəzənin, əvvəl başda pür kamalı gərəkdi, oturub-durmaqla ədəbin bilə, mərifət elmində dolu gərəkdi" mərifətlərinə malik, "Danışdığı sözün qiymətin bilə, kəlməsindən ləli-gövhər süzülə, məcazi danışa, məcazi gülə, tamam sözü müəmmalı gərəkdi", – dəyərinə qadir aşıqdı. Haqq aşiqi və haqq aşığı olduğu üçün özü haqqında dediyi "Ələsgər haqq sözün isbatın verə, əməlin mələklər yaza dəftərə, hər yanı istəsə, baxanda görə, təriqətdə bu sevdalı gərəkdi" sözlərini tamamilə haqq edirdi.

Özünəməxsus təbii gözəllikləri ilə seçilən, qədim yurd yerlərimizdən olan Göyçə mahalının Ağkilsə kəndində, həm də mart ayının 22-də-baharın ilk günlərində dünyaya göz açmışdı. Bu gözəlliklər məskəni, baharın da fərqli gəldiyi diyar bəlkə, Ələsgəri Ələsgər etmişdi? Dağından-dərəsindən, yaylasından-düzündən, çayından-bulağından, gülündən-çiçəyindən ilham alıb, bəlkə, aşıq olmuşdu Ələsgər?.. Sözsüz...

**Adım Ələsgərdir, Göyçə mahalım,**
**Dolanım başına, mən dərdin alım,**
**Hüsnün şöləsinə xəstə xəyalım**
**Pərvanədi, şəmistanlar dolanır.**

Göyçə Ələsgəri bir təbiət sevdalısı, vurğunu etmişdi. "Bahar fəsli, yaz ayları gələndə, süsənli-sünbüllü, lalalı dağlar", "Gözəllər seyrangahısan, görüm səni var ol, yaylaq!", "Yazın bir ayıdır – çox yaxşı çağın, kəsilməz çeşməndən gözəl yığnağın", "Köçər ellər, düşər səndən aralı, firqətindən gül-nərgizin saralır" deyir, vəsf edirdi ana yurdunu şair. Bu təbiətə məxsus hər şey Ələsgər üçün qiymətli, əvəzolunmaz idi. Mahalının təbiəti qədər oradakı bütün varlıqlar da onun üçün dəyərli idi. Elə buna görə də "Gedirdim güzarım düşdü bulağa, ovçu bərəsində maralı gördüm, yatır, inildəyir, durub boylanır, bir neçə yerindən yaralı gördüm", – deyən şairin insanpərvərliyi belə misralanır:

**Təbib olsam, yaraların bağlaram,**
**Sinəm üstün düyünlərəm, dağlaram,**
**Ələsgərəm, o səbəbdən ağlaram,**
**Ananı baladan aralı gördüm.**

Ələsgərin Aşıq Ələsgər olmasında söz yox ki, İlahidən gələn istedadla, Göyçədən aldığı ilhamla bərabər, müəllimi aşıqlar aşığı Aşıq Alının da əvəzsiz xidmətləri danılmazdır. Onun yanında şəyirdlik edən Ələsgər aşıqlıq sənətinin sirləri ilə yanaşı, ədəb və mərifət qaydalarını da öyrənmişdir. Aşıq Alı Ələsgəri ürəyincə yetişdirəndən sonra günlərin birində toy məclisində şəyirdinin şöhrətini qaldırmaq, onu el içində ucaltmaq üçün özünü qəsdən məğlub edərək sazını qalib tərəfə – Ələsgərə təslim etmişdir. Ələsgər isə böyük təvazökarlıq hissi ilə ustadının qarşısında baş əyib, ona öz ehtiramını vicdanının səsi olaraq bədahətən belə ifadə etmişdir:

**Bir şəyird ki, ustadına kəm baxa,**
**Onun gözlərinə qan damar, damar.**

Elə bu məqamda Aşıq Ələsgərin ustadına verdiyi cavab onun şəyirdi Nağı ilə birlikdə Naxçıvan səfərini xatırlatdı mənə. Öncə vurğulayım ki, Ələsgər şəyirdlik dövrünü başa vurduqdan sonra şöhrəti qısa zamanda qonşu mahallara yayılmış, əvvəlcə Göyçədə aşıqlıq etmiş, ağır toy məclisləri aparmış, daha sonra gözəl bir sənətkar kimi İrəvana, Naxçıvana, Qazağa, Qarabağa, Cavanşir ellərinə, Gəncəyə, Kəlbəcərə çağırılmış, harada olmuşsa, orada ədəbi, gözəl səsi, bənzərsiz ifası ilə hər kəsi heyran qoymuşdur.

Aşıq Ələsgər Naxçıvana da tez-tez gedər, burada məclislərdə iştirak edər, məharəti ilə insanları heyran edərmiş. Ələsgərin yaddaqalan Naxçıvan səfərlərindən biri şəyirdi Nağı ilə birlikdə olur. Məncə, bu hadisə onun Naxçıvana yenicə gəlməyə başladığı dövrlərdə baş vermişdir. Beləliklə, keçək mətləbə: Ətrafdakı insanların qızışdırıcı "tərifləri" ilə ustadının üzünə ağ olan və ondan üstün olduğunu söyləyərək ayrılıb el-el gəzən Nağı günlərin bir günü gəlib Naxçıvana çıxır. Burada özünü aşıq kimi qələmə verir. Bir bəyin məclisində söz ona veriləndə biabırçı vəziyyətə düşür və əlindən sazı alınır. Onun aşıq yox, hələ kiminsə şəyirdi olduğu açıqlanır. Nağıya vaxt verilir ki, getsin ustadını gətirsin, yoxsa vəziyyəti heç də yaxşı olmayacaq. Hələ ona rişxənd də olunur ki, sən beləsənsə, gör ustadın nə gündədir. Nağı səhvini başa düşür, qayıdır, Aşıq Ələsgəri tapır, yalvarır, üzr istəyir, onunla Naxçıvana getməsini xahiş edir. Onlar yola çıxırlar. Yolboyu maraqlı əhvalatlarla dolu günlər yaşayaraq gəlib çıxırlar Naxçıvana. Lakin Ələsgər Nağıya qəti tapşırıq verir ki, onu, sadəcə, yaşlı, ağıldankəm qoca kimi qələmə versin, kim olduğunu deməsin, adını da Solaxqəy deyə təqdim etsin (qeyd edim ki, Aşıq Ələsgər sazı sol əli ilə ifa edirmiş). Beləliklə, gəlib çatırlar mənzilbaşına, burada yenə məclis qurulur, aşıqlar sazlarını sinələrinə alıb meydana çıxırlar, oxuyurlar, deyişirlər. Məclisə daxil olarkən aşıqlar Nağıya "Ay abırsız, səni bağlayıb, özünün də sazını almışıq, özün nə bilirdin ki, indi də gedib bunu gətirmisən, hələ bir bəyi xərcə saldığın da bəs deyil?!" deyəndə Ələsgər onlara: "Ustalar, siz deyişirsiniz, ya döyüşürsünüz?", – deyir. Aşıqlar "deyişirik", – deməklə meydan qızışır. Cəfərullah və Əsədullah adlı aşıqlar haradan deyirlərsə, Aşıq Ələsgər onları bağlayır. Aralarında pıçıldaşırlar ki, bəlkə, göyçəli Aşıq Ələsgərin bağlı bəndini bu qocaya deyələr, bununla qocanı bağlaya bilələr.

Usta Əsədullah deyir:
– Cəfərullah, götür o sözü de!
Cəfərullah başlayır:
Altı gündə dünya neçə don geydi,
Nə üstə əyləşdi bərqərar oldu?
Əzəl kimlər oldu Turun bənnası,
Ulduzlar nə təhər yerbəyer oldu?
Solaxqəy (Aşıq Ələsgər) deyir:

– Oğul, o söz ki, deyirsən, bə demirsən birdən söz sahibi böyürdən çıxar, onda neynərsən?

Cəfərullah:

– Nəhlət sənə şeytan, tərs ki, tərs. Nə tərsinə aşığımış. A qoca, fikrin var bunu da açasan? Sazı bəri ver!

Solaxqəy dedi:
– Qulaq as, oğul!
Altı gündə dünya iki don geydi,
Gavi-mah üstündə bərqərar oldu.
Haqq özü olubdu Turun bənnası,
Ulduzlar göy üstə yerbəyer oldu.
Aldı Cəfərullah:
De, neçədi müqərrəyin mələyi,
Onların içində hansıdı bəyi?
Nə canlı, nə cansız, ərşin dirəyi
Nə ilə çalındı, mötəbər oldu?
Aldı Solaxqəy:
On altıdı müqərrəyin mələyi,
Hümisədi onun içinin bəyi,
Nə canlı, nə cansız, ərşin dirəyi
Salavat çalındı, mötəbər oldu.

Beləliklə, deyişmə xeyli davam edir. Aşıq Ələsgər usta Cəfərullahla Əsədullahın aciz qaldığını görəndə deyir:

Saxla dilin, özün üçün yağıdı,
Aşıq Ələsgərin odlu çağıdı,
Alar caynağına, səni dağıdı,
Göydən yerə parça-para düşərsən!

Sonda Solaxqəyin Aşıq Ələsgər olduğu, həm də heç də yaşlı olmadığı bilinir, bütün məclis əhli onu alqışlayır. Ustadlar isə sazlarını yerə qoyub məclisi tərk edirlər.

Üzqarası, qonşuluqdan kənar qonşumuz ermənilərin insanlıqdan bixəbər xislətləri bu gözəl el sənətkarının da həyatını alt-üst edir. 1918-1919-cu illərdə daşnakların türklərə törətdiyi qırğın nəticəsində Göyçə mahalının var-yoxu talanır, əhali öz dədə-baba yurdunu tərk edib başqa yerlərə köçməyə məcbur olur. İki il qədər Yanşaqda yaşayan aşıq-şair sonra Tərtərə köçür, bir neçə ay da orada qalır. Bu yerlərin hər birində aşığı hörmətlə qarşılasalar da, onun ürəyi-gözü Göyçədə idi. Qəlbi tez-tez qubarlanır, gözünü açıb gördüyü doğma yerlər – Sarınər, Murov, Muşoy dağları, Xaçbulaq yaylaqları üçün darıxırdı. Ürəyinin dağını-düyününü "Hanı mən gördüyüm qurğu-büsatlar!? Dərdməndlər görsə, tez bağrı çatlar; Mələşmir sürülər, kişnəşmir atlar, niyə pərişandı halların, dağlar!?", "Hanı bu yaylaqda yaylayan ellər!?", "Hanı mərd iyidlər, boş qalıb yurdu!?", "Gözəllər çeşməndən götürmür abı" kimi misralara çevirib sonda bu acıları, sanki öz canından çıxararaq deyirdi:

**Həsənnənə, Həsənbaba qoşadı,**
**Xaşbulaq yaylağı xoş tamaşadı.**
**Arsız aşıq elsiz niyə yaşadı,**
**Ölsün Ələsgərtək qulların, dağlar!**

Türkiyədə, İranda və Dağıstanda da ustad bir sənətkar kimi tanınan aşıq, nəhayət, 1921-ci ildə Ağkilsəyə qayıtmış, ömrünün son illərini doğma kəndində yaşamışdır. Lakin Ələsgər özündə əvvəlki gücqüvvəti daha hiss etmirdi. Şəxsi həyatında baş verən bəzi problemlər, yurd həsrəti bu söz sərrafının gücünü əlindən almışdı zaman-zaman. Ona görə də, sanki özünü günahlandırır, ittiham edirdi:

**Səksəni, doxsanı keçibdir yaşım,**
**Əzrayıl həmdəmim, məzar yoldaşım.**
**Gor deyə tərpənir bələlı başım,**
**Daha köç təbilin çal, qoca baxtım.**

Lakin həyat belədir ki, insana onun arzuladıqlarını deyil, özünün rəva bildiklərini nəsib edir. Aşıq Ələsgər də ömrünün 80-90-cı illərində özünə məzardaşını həmdəm bilsə də, hələ onun qarşıda yaşayacağı neçə-neçə illər var imiş. O, bir əsrdən artıq yaşadı. Torpaq onu zamanı çatanda əli qoynuna. Sinəsində əbədi bir Aşıq Ələsgər abidəsi ucaltdı. İllərdir ki, bu abidə leytmotivini vətənpərvərlik, yurd sevgisi, nadanlığa hayqırtı, məhəbbətin tərənnümü, gözəllərin tərifi, təbiətin təsviri, əxlaqi-tərbiyəvi fikirlərin təbliği, ictimai eyiblərin tənqidi tutan şair-aşığın dəyərli irsi, folklorşünaslığa qiymətli töhfə olan əsərləri xalqımız tərəfindən göz bəbəyi kimi qorunur. Aşığın vəfatından sonra Azərbaycan folklorçuları onun əsərlərini toplayıb yazıya almış və nəşr etmişlər. 1972-ci ildə Aşıq Ələsgərin anadan olmasının 150 illiyi Azərbaycanın hər yerində böyük təntənə ilə qeyd olunmuş, bu münasibətlə Azərbaycan Elmlər Akademiyası tərəfindən onun əsərlərinin ikicildlik elmi nəşri hazırlanmış və çap edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd olunması haqqında" 2021-ci il 18 fevral tarixli Sərəncamı ilə görkəmli söz ustadının yubileyi ölkəmizdə təntənəli şəkildə qeyd olundu. Bəli, xalqımızın müqəddəs hesab etdiyi çərşənbə günü yaradıcılığında əsas xəttə çevrilən Aşıq Ələsgərin vaxtilə bir çərşənbə günündə çeşmə başında ərsəyə gələn qoşması zaman-zaman milyonlarla insanın ən sevimli poeziya nümunəsi oldu, sözlərinə nəğmə qoşulan onlarla şeiri kimi, Azərbaycanın və türk xalqlarının məşhur mahnısına da çevrildi. Amma elə gəlir ki, sanki Aşıq Ələsgər yaradıcılığı bu qoşma ilə başlanır, deyilmi? Çünki o çərşənbə, o çeşmə, o su bir aydınlıq gətirdi aşığın yaradıcılığına. O çeşmə başında "Ələsgərəm, hər elmdən halıyam" söyləyən şair-aşığın bu deyimi bütün ömrü və fəaliyyəti boyu hər an özünü təsdiqlədi və onu su ömürlü, su istəkli etdi...

***Mətanət Məmmədova***

# Azərbaycanda kənd turizminin inkişafı



**“Azərbaycanda kənd turizminin inkişafını bölgələrdə, xüsusən də ucqar kəndlərdə yaşayan insanların rifahının yaxşılaşdırılması üçün atılan addım kimi qiymətləndirmək lazımdır. Ölkə rəhbərliyinin turizm sənayeçilərinin qarşısında qoyduğu tələb və tapşırıq da çox mühümdür.**

Xüsusilə, bölgələrdə və kəndlərdə turizmin inkişafı, eləcə də "Şəhərdən kəndə" layihəsini qeyd etmək lazımdır. Bunların hamısı kənd turizminin inkişafından xəbər verir". Bu sözləri SİA-ya danışan turizm eksperti Rəhman Quliyev deyib. Onun sözlərinə görə, bu gün Azərbaycanın ucqar bölgələrində yol infrastrukturundan ən yüksək səviyyədə qurulması bölgələrə turist axınını mütəmadi hala gətirir: "Bölgələrdə işləyən fermerlərin də fəaliyyəti çox mühümdür. Çünki yerli və xarici turistlər bölgələrə səfər edərkən həmin fermerlərin təsərrüfatından yararlanırlar".

Ekspert qeyd edib ki, bölgələrdə festivalların keçirilməsi də kənd turizminin inkişafına səbəb olar: "Nəzərə almaq lazımdır ki, turistlər festivallara qatılır və ya kənd təsərrüfatı məhsullarından istifadə edirlər. Bunun da kənd təsərrüfatına böyük dəstəyi olur. Hesab edirəm ki, kənd turizminin inkişafı üçün dağ-xizək turizmi, kənd təsərrüfatı məhsullarının sərgisi, at yarışları və yaylaqlarda milli döyüşlər keçirilə bilər. Həmçinin,

**EKSPERT**

Qarabağa da turist axını cəlb etmək üçün sözügedən addımları atmaq olar. Arıçılıq və qoyunçuluqla məşğul olanlar yaxın gələcəkdə işğaldan azad olan bölgələrə üz tuta bilərlər. Hesab edirəm ki, Laçında, Kəlbəcərdə, Zəngilanda bu istiqamətdə addımların atıla bilər.

Bununla yanaşı, yaylaqlarda kabab və ya kənd təsərrüfatı məhsullarının satışı kimi festivallar keçirilə bilər. Hər il bölgələrdə belə festivallar keçirilməsi yerli və xarici turistlərin böyük marağına səbəb olar. Bu da bölgələrdə və kəndlərdə yaşayan əhalinin sosial rifahının yüksəldilməsinə müsbət təsir edəcək".

***Ləman***

# “Torpaqlarımız azad edildikdən sonra hər şeyi yenidən qurmaq lazım gəldi”

“Torpaqlarımızın Ermənistan işğalından azad edilməsi ərazilərin viran günə qoyulmasının mənzərəsini açdı. Ermənistan 30 il ərzində yaşayış evlərini, sosial obyektləri, infrastrukturları darmadağın etdi. Həmin yerləri insan yaşaması üçün mümkünsüz şəraitə çevirdi. Eyni zamanda torpaqların əhəmiyyətli bir hissəsi minalandı ki, bu sonradan geri qayıdan əhali üçün çox böyük təhlükə törətdi. Amma rəşadətli Azərbaycan əsgərinin qəhrəmanlığı ilə torpaqlar işğaldan azad edildikdən sonra qısa zamanda böyük bərpa quruculuq işlərinə başlandı. Hələ Vətən müharibəsindən xeyli əvvəl Böyük Qayıdış planları hazırlanmışdı ki, onlar həyata keçirilməyə başlandı". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.




Onun sözlərinə görə, il yarım bundan əvvəl Zəngilan rayonunun Ağalı kəndinə ilk ailələrin qayıtması həmin torpaqların sahiblərinin öz dədə-baba yurdlarına qayıtmaq əzmindən xəbər verdi: "Artıq 5 yaşayış məntəqəsində 5 minə qədər əhali yaşayır. Bu il 25 yaşayış məntəqəsində 20 minə qədər keçmiş məcburi köçkünlər yaşayacaq. Dövlət tərəfindən yaşayış yerlərinin bərpası, kommunikasiyaların salınması, sosial obyektlərin tikilməsi üçün böyük işlər görülür. O cümlədən iş yerlərinin yaradılması da dövlətin böyük diqqətindədir. Bu il artıq Kəlbəcər, Şuşa və mümkündür ki, Ağdam rayonuna qayıdış baş verəcək. Onlarla kənddə geri qayıdış üçün böyük işlər görülür, evlər tikilir, insanlar üçün iş yerləri yaradılır. Burada dövlət vəsaiti ilə yanaşı artıq özəl imkanların da cəlb edilməsi üçün qanunvericiliklə böyük imkanlar açılmışdır. Nəzərə almaq lazımdır ki, bütün bunlar Azərbaycan dövlətinin öz hesabına edilir. Bir beynəlxalq təşkilat, bir dövlət bizə hansısa məsələdə yardımçı olmadı. Özbəkistan və Qazaxıstanın azad edilən ərazilərdə məktəb və uşaq yaradıcılıq mərkəzi tikməsi onların qardaşlıq həmrəyliyindən, türk birliyindən xəbər verir. Bütün bölgələr olduğu kimi, Kəlbəcər, Şuşa, Ağdam da Azərbaycanın dilbər guşələrindən birinə çevriləcəklər. Xankəndi şəhərində Qarabağ universiteti təsis edildi. O universitet zaman keçdikcə Azərbaycan təhsilinin flaqmanlarının birinə çevriləcək. Artıq həmin universitetin formalaşması üçün böyük işlər görülür. Görülən işlər barəsində vaxtaşırı cəmiyyət məlumatlandırılır".



Deputat sözlərinə davam edərək bildirib ki, turizm şirkətləri tərəfindən azad edilən zonalara səfərlər təşkil edilir: "İnsanlar indidən Ermənistanın işğal etdiyi ərazilərdə real vəziyyəti gözləri ilə görə biləcəklər. İnanıraq ki, zaman keçdikcə həmin ərazilər özünün inkişafı, yeniliyi və dövlətçiliyimizə xas olan fəaliyyəti ilə göz oxşayacaq. Azərbaycan xalqı qurub yaradan xalqdır. Prezident İlham Əliyevin düşünülmüş daxili və xarici siyasəti torpaqlarımızın azad edilməsinə, azad edilən torpaqların bərpasına, insanlarımızın öz dədə-baba torpaqlarına qayıdaraq tarixinə, torpağına sahiblənməsinə gətirib çıxarıb".

***L. Sərraf***



# Uşaqpulu veriləcək?

**Elçin Bayramlı**

***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin ötən həftə keçirilən iclasında deputat Vüqar Bayramov “Əmək pensiyaları haqqında” qanunda 8-ci və “Sosial müavinətlər haqqında” qanunda 4-cü maddələrə yenidən baxılmasını vacib sayıb. Azərbaycanda 3 uşaqlı ailələrin çoxuşaqlı hesab edilməsi və onlara sosial yardım ayrılması təklif olunur. Mütamadi olaraq bu məsələ digər deputatlar, jurnalistlər, ictimai xadimlər tərəfindən də irəli sürülür.***

Mən də uzun illərdir daim bu təkliflərlə televiziya və mətbuatda çıxış etmişəm. Belə ki, hazırda bizdə 6 uşaqlı ailələrə yardım verilir 105 manat məbləğində. Lakin ölkədə 6 uşaqlı ailələr yox dərəcəsindədir, hazırda 3 uşaqlı ailələrə belə nadir rast gəlinir. Azərbaycan faktiki olaraq biruşaqlı ailə modelinə keçib.

3 uşaqlı ailənin artıq çoxdan çoxuşaqlı olması inkaredilməz faktdır. Sadəcə bunu rəsmiləşdirmək lazımdır. Bu həm statistikadan, həm də ətrafımızda müşahidələrimizdən də aydın görünür. Bu olduqca təhlükəli, hətta faciəvi bir tendensiyadır. Yəni bir ailədə 3-dən az uşağın olması həmin xalqın tədricən məhv olub sıradan çıxması deməkdir. Bir xalqın davam etməsi, yaşaması üçün hər ailədə minimum 3 uşağın olması şərtdir. Çünki bu uşaqların biri müxtəlif dövrlərdə dünyasını da dəyişə bilər. Hətta 3 uşaq olanda belə əhali artmır, sadəcə say yerində qalır.

Dünyanın bütün mədəni ölkələri çoxuşaqlı ailələrin sayının çox olmasına çalışır. 1 uşaqlı ailənin necə faciə olduğunu artıq dünyada başa düşürlər. Xüsusilə də, Çində bu təcrübənin faciəvi sonluğunu görəndən sonra 2-3 uşaqlı ailələrin təbliğinə başladılar.

3 uşaqlı ailə çoxuşaqlı ailə hesab olunmağa başladıqda artıq dövlətin müəyyən imtiyazlar sistemi işə düşür. Sosial müavinətlər, müxtəlif formada yardımlar və s. bunlara daxildir. Bu sistem bizdə, çox təəssüf ki, yox kimidir.

Əksər ölkələrdə aylıq uşaqpulu verilir. Qonşu Rusiya, İran, Ermənistan kimi ölkələr da bura daxildir. Hətta bəzi ölkələrdə uşaq pulundan əlavə ailələrə ev, torpaq, avtomobil verilməsi qaydaları var- məsələn Rusiyada. Orada uşqpulundan əlavə çox sayda stimullaşdırıcı tədbirlər var- torpaq sahəsi ayırmaq, ev vermək, özünüməşğulluq üçün müvafiq təminatları vermək, valideynlərin əmək hüquqlarından xeyli əlavə güzəştlər və s. Bu dövlətin stimullaşdırıcı tədbirləridir. Məqsəd isə normal ailə modelinin bərqərar olmasıdır.

Bəzən bildirilir ki, bütün uşaqlara uşaqpulu verməyə dövlətin imkanı çatmır. Xeyr, heç bir maliyyə problemi yoxdur, dövlətimizin maliyyə imkanları lazım olduğundan dəfələrlə çoxdur və getdikcə də artır. Buna baxmayaraq əgər bütün uşaqlara vermək istəmirlərsə, onda heç olmasa çoxuşaqlı- yəni 3 və daha çox uşaqlı ailələrə uşaqpulu ödənilməlidir. Ya da ən azı müəyyən bir yaş qrupunda olan uşaqlara verilməsi mümkün ola bilər- məsələn 5 yaaşdək, 10 yaşadək və s. Məbləğin az olması da müəyyən qədər qəbuledilən olardı, bu, yenə də ailəyə dəstək olacaq.

Uşaqpulunun verilməsi belə uşaqların sayını əhəmiyyəti həddə artıracaq gücdə deyil, bu yardım sadəcə mövcud uşaqların sağlam böyüdülməsinə dəstək ola bilər. Hesab edirəm ki, ilkin mərhələdə hər uşağa ayda ən azı 100 manat olmaqla 3 və daha çox uşaqlı ailələrə yardım edilməlidir.

Əgər dövlət büdcəsində maliyyə yükü yaradacağını iddia edirlərsə, onda alternativ də təklif edə bilərik. Məsələn ünvanlım sosial yardımı ləğv edib onu uşaqpulu formasında vermək olar.Ünvanlı social yardım o qədər də ünvanlı deyil və burada çox sayda neqativ hallar var, bu sistemə insan müdaxiləsi çox rahatdır. Lakin uşaqpulunda bu mümkün deyil, çünki uşaqlaırn konkret sayı məlumdur və hər uşaq heç bir xüsusi sənədlər toplanılmadan bu yardımı ala biləcək. Göründüyü kimi, uşaqpulu sistemi daha şəffaf, daha rahat və daha effektivdir.

Hər il dövlət büdcəsində bir neçə milyard manat profisit yaranır- yəni xərclənməsinə yer tapılmayan və büdcədə artıq qalan vəsait. Bu vəsaitin yarısı belə uşaqpulu verilməsi üçün kifayətdir. Aylıq uşaqpulunun bərpası sağlam gələcəyəmizin formalaşmasına dövlətimizin töhfəsi ola bilər. Çünki əhalinin əksəriyyəti aztəminatlı olduğundan uşaqların sağlam böyüdülməsini təmin etməkdə çətinlik çəkir. Ona görə də dövlət bu məsələdə öz sözünü deməlidir.

# Azərbaycanda uşaq idmanına maraq hansı səviyyədədir?



*İdmanın insan həyatındakı rolu çox önəmlidir. Kompüter və televizorun həyatımıza daxil olması ilə uşaqlar idmandan uzaq oturaq həyat tərzinə keçid ediblər.*

Bəs, uşaqlar üçün idmanın faydaları nələrdir? Uşaqlara idman müəllimi seçərkən nələrə diqqət etməliyik? Ümumiyyətlə, Azərbaycanda uşaq idmanı hansı səviyyədə inkişaf edib. Övladlarımızı idmana minimum neçə yaşından yazdırmaq mümkündür?

### Uşaqlar üçün idmanın faydaları

İdman uşağın psixoloji, sosial və fiziki inkişafına kömək edir. Fərdi idman növləri özünə inamın və məsuliyyət götürmə qabiliyyətinin inkişafına töhfə verərkən, komanda idmanı bir-birinə kömək etməyi və fərdi ambisiyaları idarə etməyə müsbət təsir göstərir.

İdmanla məşğul olan uşaq vaxtını düzgün istifadə etməyi öyrəndiyinə görə, məktəbdə uğur qazanır. Müntəzəm fiziki fəaliyyətlə uşağın gücü və dözümlülüyü artır, sümük inkişafına müsbət təsir edir, çəkiyə nəzarət əldə edilir. İdmanla, hərəkətsizlik və artıq çəki nəticəsində yetkinlik dövründə inkişaf edə biləcək ürək-damar xəstəliklərinin, diabetin və digər sağlamlıq problemlərinin qarşısını almaq olar.

İdmana başlamazdan əvvəl uşağın idmanla məşğul olmasına mane ola biləcək sağlamlıq probleminin olub-olmadığı qiymətləndirilməlidir. Uşağın yaşı, anatomik-funksional quruluşu və gücü nəzərə alınaraq hansı idman növləri ilə məşğul olmaq üçün uyğun olduğuna qərar verilir.

### Hansı idman növü neçə yaşda olmalıdır?

5-7 yaş arası, yəni erkən uşaqlıq dövründə olan uşaqlar müntəzəm idman yerinə qaçış, tullanma, üzgüçülük kimi bütün bədən hərəkətlərini əhatə edən və böyük əzələ qruplarını işlədən fəaliyyətlərə üstünlük verməlidirlər. Yaradıcılığı və tədqiqatı inkişaf etdirən oyunlar və sadə fiqurlarla rəqs fəaliyyətləri dəstəklənməlidir. Bu yaş qrupunda uşaq daha çox fərdi olduğu üçün onları fərdi fəaliyyətə yönəltmək lazımdır.

Orta uşaqlıqda, yəni təxminən 8-9 yaşlarında yuxarıda qeyd olunan fəaliyyətlərdən əlavə velosiped sürmək, komanda idmanı, öyrənmə fəaliyyətləri Kompleks fiqurları əhatə edən əsas idman hərəkətləri və rəqs fəaliyyətləri başlana bilər. Bu yaş dövründə qrup fəaliyyətləri ola bilər. Komanda mübarizəsi liderliyin və şəxsi nizam-intizamın inkişafı üçün vacibdir. Hər bir uşağa rəhbərlik etmək şansı verilməlidir.

10 yaşından sonra yarış tərzi fərdi, komanda idmanları və qrup fəaliyyətləri şəklində ola bilər.

### Xüsusi idman sahələri üzrə təhsil almaq üçün uyğun yaşlar

Gimnastika, futbol, basketbol, voleybol, atletika, tennis, xizək idmanı üzrə 9-11 yaş, güləş üzrə 12 yaş, velosiped idmanı üzrə 14 yaş, ağır atletika üzrə 15-16 yaş, boks üzrə 17 yaş.

SİA mövzu ilə bağlı mütəxəssislərin fikirlərini öyrənib.

**Powerlifting idman növü üzrə öz şəxsi çəkisindən dörd dəfə çox ağırlıq qaldıran, Peşəkar Divizionda (ProDivision) çempion və dünya rekordunu qıran ilk azərbaycanlı idmançı olan Rövşən Xəlilov:**"Azərbaycanda 2 növ idman var: olimpiada və qeyri-olimpiya idman növləri. Olimpiya idman növlərində valideynlərin və məşqçilərin marağı böyük olduğu üçün uşaqları cəlb edə bilirlər. Çünki bu idman növlərində dövlət mükafatları, uşaqların təhsili ilə bağlı verilən vədlər daha çoxdur. Yəni, burada müəllimlərin, valideynlərin və uşaqların gələcəyi üçün perspektiv var deyə, olimpiya idman növlərinə daha çox maraq göstərirlər. Məsələn, güləş, cüdo, futbol, gimnastika.



## MÜTƏXƏSSİSLƏR DANIŞDI

Bunlarla yanaşı qeyri-olimpiya növlərinə o dərəcədə maraq yoxdur. Çünki mükafat cəhətdən onlar olimpiya idman növləri ilə müqayisədə çox azdır və yaxud da elə bir mükafatlanma olur ki, o illərini o idmana həsr etməyə dəymir.



Olimpiya idman növlərində də xüsusi federasiyalar var ki, həqiqətən də uşaqların inkişafında böyük təkan göstərirlər. Gedirlər məktəblərə, rayonlara, kəndlərə baxırlar və perspektivli, güclü uşaqları seçirlər. Həmin uşaqların valideynləri ilə danışır, Bakıda təlimlərə cəlb edir, yarışlar keçirir və oradan uğurlu olanları seçirlər. 7, 13 , 15 yaş qruplarına üstünlük verirlər.

Amma qeyri-olimpiya idman növlərinə maraq o qədər də deyil. Təsadüfi hansısa idman növləri var ki, məsələn karatedir, kinqboksinqdir, pau-liftinqdir. Yəni bu idman növləri nisbətən olimpiya idman növlərinə baxanda çox geridə qalır. Uşaqları cəlb etmək çətin olur. Çünki uşaqlar valideynlərdən asılı olduğu üçün valideynlərlə danışıqlar getməlidir. Valideyn də baxır ki, perspektiv yoxdur, uşaq bu idman növündə gələcəyini qura bilmirsə, nəyə görə onu seçsin. Ona görə də olimpiya idman növlərində federasiyalar bu işlə məşğuldur, uğurlu da alınır.

Olimpiya idman növlərində uşağa vəd verirlər ki, sən çempion olsan ali təhsil alacaqsan, bədən akademiyasında dövlət işində işləyə bilərsən. Yəni, qalib olandan sonra mükafatlar ala bilərsən. Ancaq təəssüflər olsun ki, qeyri-olimpiya idman növlərində o qədər də diqqət və qayğı, böyük vədlər olmadığı üçün valideynlər, uşaqlar və məşqçilər bu idman növündə o qədər də uğurlu ola bilmirlər, yəni tələbə cəlb edə bilmirlər. Amma qeyri-olimpiya növündə isə bu çox asan məsələdir. Bunda nəsə alınarsa, onunla məşğul olurlar 5-10 il və əla uğur əldə edirlər. Amma təəssüf ki qeyri-olimpiya idman növlərində bu çox da özünü doğrultmur".

**"Kəpəz"in baş məşqçisi Tərlan Əhmədov:** "Azərbaycanda idmana böyük bir dəstək var. Ali Baş Komandanın Milli Olimpiya Komitəsinin prezidenti işlədiyi dövrdə idmana böyük yatırımlar etdi. Ulu Öndər Heydər Əliyevin dövründə də idmana böyük maraq və dəstək vardı. Yaradılan şəraitdə tədricən idmançıların inkişafı istiqamətində böyük işlər gedirdi.

Ali Baş Komandan artıq Olimpiya komitəsinin Vitse-Prezidenti seçildikdən və dövlət başçısı olandan sonra idmana böyük bir dəstək oldu. İdman qurumları inşa olunmağa, olimpiya kompleksləri tikilməyə başladı, bütün idman qurumları yenidən yüksək səviyyədə təmir olundu. Yəni, burada məsələ dövlətimiz tərəfindən gənc nəslin sağlam təfəkkürlü inkişaf etməsi idi. Bu baxımdan da böyük işlər görülürdü. Məşqçilərin təhsil alması, savadlanması baxımından işlər gedirdi.

Yeni nəslin yüksək intellektual səviyyədə inkişaf etməsi, sağlam böyüməsi yönündə dövlətimiz tərəfdən böyük işlər görülür. Bu baxımdan bugün biz onun xeyrini görməyə başlamışıq.

Bilirik ki, Azərbaycan xalqı istedadlı xalqdır. Yəni burada dahi idmançılar, istedadlar yetişir, dünyaya gəlir. İnkişaf etdirən təlim-tərbiyə işi ilə məşğul olan müəllimlər, məşqçilər, pedaqoqlar artıq dövlətimizdə var. Bugün uşaq idmanına olan dəstək bəlkə də dünyanın heç bir yerində yoxdur, amma dövlətimiz tərəfindən bu artıq həyata keçirilib. Bilirsiniz ki, idmana yeniyetmə, cavan, uşaq yaşından daha çox axın var. Ümumiyyətlə bütün idmana, futbol, basketbol, voleybol, güləş, kinq-boks bütün idman növünə həddindən artıq çox böyük axın var. Dövlətin dəstəyini, verdiyi dəyəri gənc nəsil, məşqçilər bunlar hamısı yüksək əhval-ruhiyyədə sevə-sevə həyata keçirməyə çalışırlar. Bu baxımdan dövlətimizdə hər bir sahədə olduğu kimi idmanda da böyük bir sıçrayış və uğurlar var. Bu uğurların da təməlini başda Ali Baş Komandan olmaqla yaradılan şərait, dövlət başçımız tərəfindən tərəfindən verilən dəstəyin, dəyərin qiymətidir ki, bugün idmançılarımız beynəlxalq arenada uğurlar əldə edirlər".

**MMA məşqçisi, "TT Fight" döyüş klubunun baş məşqçisi Şəhriyar Abbasov:** "Azərbaycanda bütün idman növləri inkişaf etdirilməlidir. Bu dövlətin xüsusi marağında olmalıdır.

Son zamanlar turnirlər az keçirilir. Mənə qalsa, mən bütün federasiya rəhbərlərini buraxaram. Onlar 20-30 ildir oturub işləmirlər. Bu da idmanın yerində sayması və inkişafdan qalması deməkdir. Son vaxtlar narkomaniyanın yayılması birbaşa bununla bağlıdır. Uşaqlar idmandan kənar düşür. Yaxşı olar ki, onlar enerjilərini idmanda boşaltsınlar, sağlam yetişsinlər. Həyəcan siqnalı vermək lazımdır. İdmanla bağlı inkişaf proqramı hazırlanmalıdır.



Uşaq idmanı yoxdursa inkişaf necə ola bilər? İdmançılar bundan da çox uğur qazana bilərlər. Onlara daxildə rəqabət lazımdır. Çünki idman rəqabətlə inkişaf edir. Hər bir şey rəqabətdən doğur. Təəssüflər olsun ki, bu gün idman acınacaqlı durumdadır.

Narkomaniya niyə artır? İnsan gündə 1-2 dəfə məşqə gedirsə, o insan enerjisini orada buraxır və əlavə işlərə vaxtı olmur. İdman önəmlidir.

Federasiyalar hamısı buraxılmalıdır ki, yeni format yaransın. Zallar bomboş qalıb. Dövlət bu zallar üçün böyük maliyyə vəsaiti ayırıb".

**15 yaşlı boksçu Tunar Əliyev:** "Qazax rayonu Ağköynək kəndində doğulmuşam. 9 yaşımdan boks ilə məşğulam. Artıq 6 ildir.

İdmanla məşğul olmaq özümün istəyidir. Heç kim mənə bu barədə məsləhət etməyib. Özümün böyük bir marağım var. Yalnız irəli getmək bir qədər çətindir.

İlk yarışım 2019-cu ildə Ağstafa rayonunda olub. Qazaxda Solaxay boks məktəbində məşqlərdə olmuşam. 2 dəfə gürcüstanlı uşaqlar arasında çempionluq qazanmışam.

Valideynlərim uğurlarımı gördükcə buna alışmağa başladı. Nəhayət məsləhətlə Hövsan Olimpiya Kompleksinə yollandım. Bir müddət burada qalmaq şərti ilə məşq etdim və məktəbə getdim. İndi də məşqlərə davam edirəm. İrəliləyən vaxtlarda yarışlarımız olacaq ona hazırlıq görürəm".

***Ayşən Vəli***

# Fransa bəşəriyyətin varlığına təhlükə yaradan dövlətə çevrilir

***Dünya yeni müharibələrə, münaqişələrə cəlb olunmaqdadır. Xüsusilə də sakit, sabit bölgə olaraq xarakterizə olunan Avropa, növbəti dağıdıcı müharibələrin qurbanı ola bilər. Hətta Rusiya prezidenti Vladimir Putinin Qərbi və ABŞ nüvə müharibəsi ilə hədələməsi və buna cavab olaraq Fransa prezidenti E.Makronun "biz də nüvə müharibəsinə hazırıq" deyə hədə mesajına soyuqqanlı şəkil də cavab verməsi bəşəriyyətin olum, qalım astanasında olduğunu göstərir.***






Əgər siyasi şərhçilər 3 - cü dünya müharibəsinin İzrail-HAMAS müharibəsi zonasından başlayacağını ehtimal edirdilərsə, artıq diqqətlər Ukrayna-Rusiya müharibəsi zonasına yönəlib. E. Makronun "imkan verməyəcəyik ki, Rusiya Ukrayna üzərində qələbə qazansın, biz müharibə zonasına qoşun göndərəcəyik" deyə bildirməsindən sonra, üçüncü dünya müharibəsinin olmasına şübhə ilə yanaşanlar, artıq ciddi şəkil də düşünməyə və narahat olmağa başlayıblar. Təbii ki, 3 - cü dünya müharibəsinin baş verməsi və nüvə silahının işə düşməsi bəşəriyyətin sonu ola bilər. Bunu dünyanın aparıcı dövlətləri bilsələr də vəziyyətin stabilləşdirilməsi üçün lazımi addımlar atmırlar. Əksinə Fransa prezidenti Makron hədləyici bəyanatlarını daha açıq və geniş forma da səsləndirməkdədir. Söz yox ki, Makron heç də bu cür hədə ritorikası ilə səmimi şəkil də Ukraynanın yanında olduğunu, Zeliniskinin halına canıyanalıq etdiyini göstərir. Əslin də Fransanın Afrikadan rüsvayçı formada qovulmasından və dünya siyasətində yerinin tamamilə zədələnməsindən sonra Makron ölkəsinin imicini ən azı qoruyub, saxlamaq üçün pafoslu mövqe sərgiləyir. Məlum faktdır ki, Fransa açıq şəkildə müstəmləkə siyasəti aparan və terroru dəstəkləyən, maliyyələşdirən dövlətlər sırasında yer alır. Bu baxımdan belə bir dövlət dünyada sülhə və təhlükəsizliyə heç bir halda töfhə verə bilməz.

**Natavanın heykəlinə qarşı törədilən vandalizm aktı Makron hakimiyyətinin vəhşiliyinin daha bir nümunəsi sayıla bilər**

Fransada muzdullu dəstələrin iştirakı ilə Azərbaycanın körkəmli şairəsi Natavanın heykəlinə qarşı törədilən vandalizm aktı Makron hakimiyyətinin vəhşiliyinin daha bir nümunəsi sayıla bilər. Həm də təsdiq olunur ki, heykələ qarşı törədilən vandalizm ermənilərin Xocalıda törətdikləri soyqırımı aktlarından heç nə ilə fərqlənmir. Azərbaycan Prezidenti İlham Əliyev "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumunda çıxışı zamanı bildirdi ki, heykəl ki, Azərbaycanın Mədəniyyət Mərkəzinin həyətinə gətirib orada yerləşdirilib: "Bir neçə ay sərf etməli olduq ki, həmin abidəni (Natavanın vandalizm aktına məruz qalmış heykəli – red.) Eviandan götürüb Azərbaycanın Mədəniyyət Mərkəzinin həyətinə gətirib orada yerləşdirək. Hazırda Natəvanın abidəsi oradadır. Prezident İlham Əliyev həmçinin qeyd edib: "Bu, əslində, onu göstərir ki, biz suverenliyimizi bərpa etdikdən sonra nə ilə üzləşmişik. Bu, əslində, ikili standartların nümayişidir". Fransanın müstəmkə siyasəti apardığı, harada olubsa orada qan tökdüyü, kütləvi şəkil də unsanları qətlə yetirdiyini sübut edən minlərlə fakt mövcuddur. Ali kürsülər də Fransanın vəhşiliyi qeyd olunub. Bakıda keçirilən 14 ölkədən, eləcə də Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərdən olan nümayəndələrin iştirak etdiyi "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda konfransda müstəmləkə altında əzilən xalqların nümayəndələri Fransanı müstəmləkəçiliyə son qoyulmasına çağırışını etdilər. Qvadelupanın Azadlığı Uğrunda Xalq İttifaqının nümayəndəsi Jan Jakob Bisep beynəlxalq konfransda çıxışı zamanı bildirdi ki, dörd əsrdir ki, biz Fransanın təzyiqi altında yaşayırıq: "Ölkəmiz Fransanın müstəmləkəçiliyi dövründən bəri öz haqları uğrunda mübarizə aparır.

Fransızlar bizim ərazilərdə işləyir, yerli əhali isə işsizdir. Azadlığımız üçün mitinqlər təşkil edirik ki, səsimiz eşidilsin, amma buna görə həbsə atılırıq. Biz Fransa müstəmləkəçiliyi ilə mübarizəmizi davam etdiririk. Bu ölkənin ədalətsizliyindən çox əziyyət çəkirik". Böyük Britaniyanın "CAGE" müstəqil insan haqları təşkilatının icraçı direktoru Məhəmməd Rəbbani isə konfransda çıxışında bildirdi ki, Fransa müsəlmanların uşaqlarını kriminallaşdırır: "Fransada etirazların strateji olaraq yatırılması trayektoriyası əks olunub. Burada hazırkı irqçilik və islamofobiya siyasətinə qarşı tənqidləri susdurmağa çalışırlar. Müsəlmanların üzərinə müxtəlif cinayətləri atırlar. Onların özünüifadə hüququ tapdalanır, qızların məktəblərdə müsəlman geyimləri geyinməsi qadağan olunur".

Konfrans iştirakçısı Yeni Kaledoniyanın Sosialist və milli KANAK azadlığı cəbhəsinin BMT-dəki nümayəndəsi Xanım Maqalie Tinqal çıxışında Yeni Kaledoniya xalqı adından Azərbaycan Prezidenti İlham Əliyevə bəyanatına görə təşəkkür edib: "Bu, çox güclü və çox doğru bəyanat idi.Fransa çox ikiüzlüdür. Azərbaycan Prezidentinə bizim vəziyyətimizlə bağlı bəyanatına görə təşəkkür edirəm. Biz bu gün Yeni Kaledoniyada çox böyük problemlərlə üzləşirik. Yeni Kaledoniyanın müstəqilliyi ilə bağlı 2021-ci ilin 12 dekabrında keçirilmiş referendum pandemiya dövründə təsadüf etdi. Ona görə də biz bunun təxirə salınmasını istədik. Lakin Fransa referendumu saxladı, nəticədə Yeni Kaledoniya əhalisinin 57 faizi referendumda iştirak edə bilmədi. Fransanın bu referendumu saxlaması ikiüzlülükdür. Biz öz hüquqlarımız uğrunda mübarizə aparacağıq. Ona görə də bu məsələni Beynəlxalq Ədalət Məhkəməsində qaldıracağıq".







**Fransa Rusiya -Ukrayna müharibəsinə qoşulmaqla dağıntılarda, insan qətliamında iştirak etməyə çalışır**

Vəhşiliyi ilə seçilən Fransa yeni münaqişələr də, müharibələr də iştirak etmək üçün həvəsli görünür. Bu dəfə Rusiya -Ukrayna müharibəsinə qoşulmaqla dağıntılarda, insan qətliamında iştirak etməyə çalışır. Artıq bu məqsədlə Makron hakimiyyəti hazırlıqlara başlayıb. Bunu E.Makron açıq şəkil də qeyd edir və özünə tərəfdarlar tapmaq üçün dövlət başçıları ilə danışıqlar aparır.

*Ardı Səh.11*

# Fransa bəşəriyyətin varlığına təhlükə yaradan dövlətə çevrilir








**Əvvəli-Səh-11**

Fransa prezidenti Emmanuel Makron Ukraynaya qoşun göndəriləcəyini istisna etməyib. E.Makron bildirib ki, "Bu gün quru qoşunlarının rəsmi olaraq göndərilməsi ilə bağlı konsensus yoxdur, lakin dinamik inkişafda heç nəyi istisna etmək olmaz". Emmanuel Makron Parisdə Ukraynaya yardıma dair konfransın yekununda bu barədə danışıb, lakin o, hansı ölkələrin qoşun göndərmək imkanını nəzərdən keçirdiyini dəqiqləşdirməkdən imtina edib. İclasda iştirak edən Polşa prezidenti Anjey Duda da Makronun sözlərini təsdiqləyib. O bildirib ki, əsas müzakirə Ukraynaya qoşun göndərib-göndərməməkdən gedir: "Bu məsələ ilə bağlı heç bir razılaşma olmayıb".

İsveç mətbuatına istinadən xəbər verir ki, bu barədə İsveçin Baş naziri Kristersson Fransa Prezidenti Emmanuel Makronun Ukraynaya hərbçi göndərilməsi fikri ilə bağlı danışarkən bildirib ki, bir ölkə dünyanın istənilən nöqtəsinə ordu göndərirsə, bu NATO-nun ümumi qərarı deyil. Onun sözlərinə görə, İsveçin Ukraynaya qoşun göndərməsi üçün heç də uyğun zaman deyil.

Baş nazir Kristersson bildirib ki, Emmanuel Makron NATO-nun yox, Fransanın Ukraynaya qoşun göndərib-göndərməməsini müzakirə edə bilər."Əgər bir ölkə dünyanın başqa yerinə qoşun göndərmək istəyirsə, bu, NATO-ya təsir etmir. Fransanın ənənəsi İsveç ənənəsi deyil", - o əlavə edib.

Fransanın müdafiə naziri Sebastyen Lekorn isə bildirib ki, Ukraynaya qoşun göndərilməsi Rusiyaya qarşı müharibə aparmaq üçün qoşun göndərmək deyi. Onun sözlərinə görə Parisdə keçirilmiş konfrans zamanı Avropa liderləri Ukraynaya yardımı artırmaq üçün müxtəlif ideyalar təklif ediblər, o cümlədən Ukraynada minalardan təmizləmə yardımının genişləndirilməsi və Ukrayna qoşunları üçün təlimlərin artırılması: "Bu cür tədbirlərlə bağlı konsensus əldə olunmayıb".

Faktlara və baş verən proselərə əsasən demək olar ki, Fransa dünyada sabitliyin pozulmasında, müharibələrin, münaqişələrin yaranmasında maraqlı dövlətdir. Bəzən qızışdırıcı mövqe tutmaqla dövlətlərarasında münaqişələrin yaranmasına cəhdlər göstərir. Müharibələrin sayı çox olarsa Fransa kərəksiz və keyfiyyətsiz silah sursatını müharibə aparan dövlətlərə satmaq imkanı qazanmış olacaq. Düşüncə yoxdur ki, həmin silahlar minlərlə insanın itkisinə yol açır, yüzlərlə yaşayış məskənin dağıdılıb, viran edilməsinə səbəb olur. Bu gün Fransa dünyada silah ixracatçılarının ilk beşliyindədir. Raket silahı 23 faiz, radioelektronika 22 faiz və aviasiya texnikası 21 faiz təşkil edir. Ölkənin silah istehsal edən şirkətləri dünyanın 130 ölkəsinə silah satışını həyat keçirilər. Əsa silah alıcıları Səudiyyə Ərəbistanı, Misir, Hindistan, BƏƏ və Qətərdir. Fransa "bacı" sı hesab etdiyi Ermənistana da silah satışını həyat keçirir. Bu gün silah arselanını daha da gücləndirən Fransa yeni silah alıcıları tapmaq ümidi ilə axtarışlar aparır.

### Fransa işğal etdiyi ərazilərdə kütləvi qırğınlar törədən dövlət olaraq da tanınır

Fransa dünyada işğal etdiyi ərazilərdə kütləvi qırğınlar törədən dövlət olaraq da tanınır. Hətta müstəmləkəsi olan dövlətlərin xalqlarını zəhərləmək üçün nüvə sınaqları da həyata keçirir. Misal olaraq, 1960-1966-cı illərdə Əlcəzairin Böyük Səhrada payına düşən Reqqan və İn Ekker adlı ərazilərində Fransa tərəfindən 17 nüvə sınağının gerçəkləşdirilməsini göstərmək olar. Fransa aşkar edilməmiş kimyəvi, radioaktiv və zəhərlənmiş tullantıların yerləşdiyi ərazilərə dair topoqrafik xəritələri bu günədək Əlcəzair tərəfinə təqdim etmir. Eyni zamanda Fransa həmin sınaqların və tullantıların yerli əhaliyə göstərdiyi təsirlərin qiymətləndirilməsi və müvafiq kompensasiyanın verilməsi məsələsindən də boyun qaçırır. İşğal etdiyi Əlcəzair ərazisinə 5 milyondan artıq mina basdıran Fransa həmin minaların xəritələrini Əlcəzair tərəfinə verməkdən bu günədək imtina edir. Nəticədə, Azərbaycan kimi Əlcəzair də dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələrin sırasında ön yerlərdən birini tutur. Ermənistan müttəfiqi Fransanın ənənələrini davam etdirərək işğal etdiyi Azərbaycan torpaqlarında bir milyondan artıq mina basdırmışdır və dəqiq mina xəritələrini ölkəmizə verməkdən imtina edir. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın qəbul edilməsindən ötən dövrdə 270-ə yaxın Azərbaycan vətəndaşının mina qurbanına çevrilməsinin Fransa tərəfindən bir dəfə də olsa pislənilməməsi bu ölkənin humanitar hüquqa necə selektiv yanaşdığını növbəti dəfə nümayiş etdirir. Əlcəzairin 1830-1962-ci illəri əhatə edən işğalı dövründə 1,5 milyondan artıq insan fransızlar tərəfindən qətlə yetirildiyindən bu ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır. 1832-ci ildə El-Uffia qəbiləsi gecə yatdığı yerdə qılıncdan keçirilmiş, qadınlar və uşaqlar da daxil olmaqla 12 min adam öldürülmüşdür. 1945-ci ildə Setif şəhərində 45 min əlcəzairli öldürülmüş, 5 minə yaxın adam həbs olunmuş, 99 nəfər edam, 64 nəfər ömürlük katorqa cəzalarına məhkum edilmişdir. 1961-ci il oktyabrın 17-də on minlərlə əlcəzairli Fransa işğalını pisləmək üçün Parisdə nümayişə çıxmışdır. Fransa polisinin açdığı atəş və etirazçıların Sena çayına atılması nəticəsində 1500-ə qədər əlcəzairli qətlə yetirilmiş, mindən çox şəxs həbs edilmişdir. Bu hadisə tarixə "Sena qətliamı" kimi daxil olmuşdur..Fransanın işğal etdiyi Cibuti, Nigeriya və Çadda xalqın islam təhsili alması qadağan edilmiş, məscid və mədrəsələr dağıdılmışdı. Müsəlman alimləri həbs edilmiş, müqavimət göstərən on minlərlə insan qətlə yetirilmişdi.

Tarixə "elm adamlarının soyqırımı" kimi həkk olunan hadisəni də fransızlar törətmişlər. Fransızlar 1917-ci ildə Çadda dini həyatı yenidən nizamlamaq adı altında konfrans təşkil edərək tədbirə qatılan 400-ə yaxın müsəlman elm adamının hamısını güllələmişlər. Dəhətli faktlar ondan ibarətdir ki, müstəmləkə müharibələrində öldürülən döyüşçülərin 18 min ədəd kəllə sümüyü Parisin İnsan Muzeyində saxlanılır və nümayiş etdirilir. Həmin kəllə sümüklərinin 500-dən çoxu əlcəzairli döyüşçülərin kəllə sümükləridir. Əlcəzairin həmin sümükləri geriyə qaytarmaq tələbini Fransa hələ də tam yerinə yetirmir. Fransa Mərakeşdə, Tunisdə, Vyetnamda, Ruandada, Malidə və digər işğal etdiyi 50 –yə yaxın ölkədə qanlı vəhşiliklər törətmiş və nəticədə yüz minlərlə insan həyatını itirmişdir. Təbii ki, dünya birliyi Fransanın vəhşiliklərinə sona qədər göz yummayacaq. Nəhayət bu hələ də orta əsrlər təfəkkrü ilə idarəetmə quran və insan ölümlərinə, işğallara həvəsli olan Fransanını durduracaqlar. O zaman heç şübhəsiz ki, Fransa bir dövlət olaraq varlığını itirə bilər.

***İLHAM ƏLİYEV***

# Azərbaycan – NATO: faydalı tərəfdaşlıq və səmimi dialoq

***Mart ayının 17-də NATO-nun Baş katibi Yens Stoltenberqin Azərbaycana səfəri Azərbaycan və NATO arasında əməkdaşlığın yeni hüdudlarını müəyyənləşdirdi. Bu ilin may ayında Azərbaycan–NATO əlaqələrinin 30 ili tamam olur. Ötən müddət ərzində bu əlaqələr yalnız yüksələn xətt üzrə inkişaf edib və genişlənib. 1994-cü ildə alyansın "Sülh Naminə Tərəfdaşlıq" (SNT) proqramına qəbul edilməsi Azərbay¬can üçün tarixi hadisə sayılırdı. Bəli, Azərbaycan NATO-nun uzunmüddətli tərəfdaşıdır.***

Əvvəlcə onu qeyd edək ki, Azərbay¬can–NATO tərəfdaşlığının birinci tərəf üçün faydalı olduğunun sübutunu biz İkinci Qarabağ müharibəsində gördük. Hərbi alyansın SNT layihəsi çərçivəsində Azərbaycan Ordusunda aparılan islahat¬lar bizim müdafiə imkanlarımızı geniş-ləndirdi, silahlı qüvvələrimizi müasirləş¬dirdi, onun peşəkarlıq səviyyəsini artırdı. Bu faktı qeyd etməmək mümkün deyil. Ötən 30 ildə Azərbaycan Şimali Atlantika Müqaviləsi Təşkilatının fəal tərəfdaşı kimi qurumun strateji layihələrində yaxından iştirak edib.



Bu barədə martın 17-də NATO-nun Baş katibi Yens Stoltenberqlə təkbətək görüşdən sonra mətbuata bəyanatında Azərbaycan Prezidenti İlham Əliyev hərb-çilərimizn Kosovoda və Əfqanıstanda sülhməramlı əməliyyatlarda yaxından iştirak etdiyini xüsusi vurğulayıb: "Bu, bizim üçün böyük təcrübə olub. 2021-ciilin sonlarında Əfqanıstanı tərk edən sonuncu müttəfiq qüvvələr bizim hərbi qulluqçularımız olublar. Bu isə bir daha əməkdaşlığımıza güclü sadiqliyimizi nü¬mayiş etdirir".

Daha sonra bəyanatında baş katiblə enerji təhlükəsizliyi məsələsini müzakirə etdiklərini bildirən cənab Prezident bu gün Azərbaycanın Avropanın 8 ölkəsinə qaz nəql etdiyini və onların 6-sının NATO üzvü, digər ikisinin isə hərbi blokun tərəf¬daş ölkəsi olduğunu nəzərə çatdırıb. Av¬ropa Komissiyasının Azərbaycanı etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçı¬sı adlandırdığını ayrıca qeyd edən İlham Əliyev bunun həm böyük üstünlük, həm də ciddi məsuliyyət olduğunu bildirib. NATO baş katibi Yens Stol¬tenberqin Bakıya səfərində Pre¬zident İlham Əliyelə görüşündən sonra səsləndirdiyi bir sıra me¬sajlar onu göstərir ki, Azərbayca¬nın bu hərbi blokla əməkdaşlığı, ilk növbədə, qarşı tərəfin maraq¬larına cavab verir. Bu əməkdaş¬lıq uzun illərdir davam edir və Azərbaycan NATO-nun bir çox proqramlarında yaxından iştirak edib. Bizim hərbçilərimizin sülh-məramlı missiyaların tərkibində iştirakı baş katib tərəfindən çox yüksək qiymətləndirildi.

Azərbayca¬nın Şimali Atlantika Alyansı ilə əməkdaşlığı məhz bu formatda bundan sonra da davam etdi¬riləcək. Eyni zamanda, biz bu hərbi blokun vacib üzvü sayılan qardaş Türkiyə ilə strateji əmək¬daşıq. Azərbaycan Silahlı Qüv¬vələrində NATO modeli yüksək səviyyədə tətbiq olunur. Bunun özü də real faktdır. Yəni, biz bu əməkdaşlığı yüksək qiymtləndi¬ririk, eyni zamanda, NATO-nun Baş katibi buna böyük dəyər verərək ümid etdiyini bildirdi ki, belə qarşılıqlı faydalı əməkdaşlıq yenə davam etdiriləcək. Azərbaycan bu hərbi blokun bütün tədbirlərində, missiyala-rında, müxtəlif proqramlar çər¬çivəsində keçirdiyi təlimlərdə mütləq iştirak edəcək. Bakıda aparılan danışıqlarda bu niyyət kifayət qədər aydın şəkildə öz təsdiqini tapdı.

***İsrafil Kərimov***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Novruz bayramında insanların axını necə təmin olunacaq?

***Novruz bayramı ərəfəsində və bayram günlərində insanlar paytaxt ərazisindən bölgələrə, bölgələrdən isə Bakıya üz tutacaqlar. Əhalinin nəqliyyat xidmətləri ilə keyfiyyətli və davamlı şəkildə təmin edilməsi üçün nəqliyyat üzrə qurumlar da gücləndirilmiş iş rejiminə keçəcək. SİA sizin üçün qurumlardan bu barədə məlumat alıb.***

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib ki, respublika ərazisində fəaliyyət göstərən bütün avtovağzal və avtostansiyalar Novruz bayramı ərəfəsində və bayram günlərində martın 18-dən 26-na kimi gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək: "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) şəhərlərarası və rayonlararası marşrutlar üzrə sərnişin daşımalarını yerinə yetirən daşıyıcılar tərəfindən fasiləsiz və təhlükəsiz hərəkətin təmin edilməsi, kassalardan tariflərə uyğun biletlərin qanunamüvafiq qaydada satışının həyata keçirilməsi, bayram günlərində yarana biləcək sərnişin sıxlığının qarşısının alınması, eləcə də avtobusların təsdiq edilmiş cədvəl üzrə hərəkət qrafiklərinə ciddi riayət edilməsi ilə bağlı bütün avtovağzal və avtostansiyalara müvafiq tapşırıqlar verib.

Bakı Beynəlxalq Avtovağzal Kompleksində (BBAK) bayram günlərində sərnişin axınına uyğun olaraq, marşrutlar üzrə xətlərə buraxılan avtobusların intervalına, sürücülərin sərnişindaşımada təhlükəsizlik qaydalarına əməl etmələrinə xüsusi nəzarət olunacaq. Sərnişin sıxlığının qarşısını almaq üçün xəttə lazımi sayda əlavə avtobusun buraxılması təmin ediləcək".

"Bakı Metropoliteni" QSC də Novruz bayramının qeyd edildiyi martın 20-i və 21-də iş rejimində dəyişikliklər edəcək. Belə ki sərnişin məmnunluğu və metro istifadəçilərinin rahat hərəkəti nəzərə alınaraq, bayram günlərində şəhər mərkəzinə, bayram gəzintisi və müxtəlif tədbirlərin keçiriləcəyi məkanlara yaxın stansiyalarda növbətçilik cədvəli tərtib olunacaq: "Qeyd edilən iki gün ərzində saat 07:00-dan 21:00-dək "Həzi Aslanov-28 May" sahəsində qatarların hərəkəti 2,5 dəqiqəlik intervalla tənzimlənəcək. Martın 22-dən 26-dək həmin sahədə interval 3 dəqiqə təşkil edəcək. Yaşıl və Qırmızı xətlərin kəsişərək birləşdiyi "28 May" stansiyasından "İçərişəhər" və "Dərnəgül" istiqamətlərində qatarların hərəkət intervalı iki dəfə artıq olacaq. "Bakmil" istiqamətində hərəkət edən sərnişinlərdən xahiş olunur ki, martın 20-21-də şənbə gününün, martın 22-26-da isə bazar gününün hərəkət cədvəllərindən istifadə etsinlər".



Qurumdan bildirilib ki, bununla yanaşı, qeyri-iş günlərində ehtiyat qatarlar, zərurət yaranacağı təqdirdə xəttə buraxılmaq üçün hazır vəziyyətdə saxlanılacaq: ""Bakı Metropoliteni" QSC sərnişinlərinə müraciət edərək, bayram günlərinin xoş ovqatda keçirilməsi və fəsadların yaşanmaması üçün neqativ hallara yol verilməməsini rica edir. Metropolitendən istifadə qaydalarına, ictimai asayişin tələblərinə, sanitar-gigiyenik normalara ciddi riayət edilməsi xahiş olunur".

"Azərbaycan Dəmir Yolları" QSC-nin bütün strukturları bayram günlərində gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Artan sərnişin tələbatı nəzərə alınaraq 20-26 mart tarixlərində Bakı–Ağstafa–Bakı marşrutu üzrə axşam və səhər reysləri, Bakı–Qəbələ–Bakı marşrutu üzrə isə gündəlik reyslər təyin olunub.

Belə ki, 19 mart tarixində Bakı–Ağstafa–Bakı marşrutu üzrə oturacaq tipli vaqonlardan ibarət sürət sərnişin qatarı saat 07:00-da Bakıdan Ağstafaya, saat 15:00-da isə geriyə, 20 və 21 mart tarixlərində saat 09:15-də Bakıdan Ağstafaya, saat 18:00-da isə geriyə, 22 mart tarixində saat 23:55-də Bakıdan Ağstafaya, 23 mart tarixində saat 15:00-da isə Ağstafadan Bakıya yola düşəcək.

Həmçinin xətt üzrə 20, 24, 25 və 26 mart 2024-cü il tarixində "Stadler" şirkətinə məxsus müasir sərnişin qatarları da əlavə reyslər üzrə fəaliyyətdə olacaq. Sözügedən günlərdə sürətli sərnişin qatarları Bakıdan saat 07:50-də, Ağstafadan isə saat 16:45-də yola düşəcək.

Bayram günlərində Bakı–Qəbələ–Bakı marşrutu üzrə qatarlar hər gün hərəkət edəcək. Qatar Bakıdan Qəbələyə saat 07:30-da, Qəbələdən Bakıya isə saat 19:00-da yola düşəcək. 20-26 mart tarixlərində Abşeron dairəvi dəmir yolu xətti üzrə isə qatarlar qeyri-iş günlərinin qrafikinə uyğun fəaliyyət göstərəcək.

***Ləman Sərraf***

# Novruz bayramı ərəfəsində necə QİDALANMALI?

"Bayram süfrəsində Azərbaycanın milli mətbəxi başda olur". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə Baş mütəxəssis Ağa Salamov deyib. O bildirib ki, buraya salatlar, plov, dolmalar, ləvəngi və sair daxildir: "Bunlarla yanaşı şəkərbura, paxlava, milli şirniyyatlarımız da var. Bu qidalardan çox az olmaqla istifadə etməliyik. Çox mayonezli qidalara üstünlük vermək düzgün deyil. Zeytun yağında hazırlanmış salatlara üstünlük verilməsi lazımdır. Kalori dəyəri yüksək olan qidalardan da az istifadə olunmalıdır. Mayonezli məhsulların yerinə zeytun yağında hazırlanmış mövsümü tərəvəzlərdən hazırlanmış salatlar hazırlayıb bunları süfrəyə təqdim etmək yaxşı olar. Mayonezli də ola bilər. Staliçni və memoza salatları bilirik ki, mayonezlidir.



Birinci olaraq salatdan başlayaraq 5-10 dəqiqə vaxt verməklə ikinci yeməyə başlaya bilərik. Yaxşı olar ki, süfrədə balıq olsun. Bakının südlü plovu var ki, üstündə şor balıqla təqdim olunur. Bu da yaxşı yeməkdir. Plovu 7-8 qaşıq yemək kifayət edər. Belə yemək lazımdır ki, mədəyə ağırlıq çökməsin. Nəzərə alsaq ki, indi orucluq ayıdır, iftar süfrəsini bayram süfrəsinə qatırlar. Aqressiv qidalanmaqdan uzaq durmaq lazımdır. Bol süfrəni görüb hər şeyin dadına baxmaq da olmaz. Daha sonra ara verməklə ət, toyuq, balığın dadına baxmaq olar. Balıq yüngül zülaldır, tez həzm olunur. Süfrəyə rəngli, qazlı içkilərin əvəzinə mövsümü meyvələrdən hazırlanmış kompodlar qoyulmalıdır. Bu kompodlar mineral və vitaminlərlə zəngin olur ki, bu da immun sistemini gücləndirir".

Onun sözlərinə görə, bu yeməkləri süfrədə iki saatdan çox saxlayıb sonra yemək düzgün deyil: "Yemək süfrəyə isti-isti təqdim olunmalıdır. Salatlar isə soyuq təqdim olunmalıdır. Qidalar iki saat ərzində yeyilib bitməlidir. Əgər bitmirsə, tez "+4" soyuducusuna qoyulub 48 saat ərzində yeyilə bilər. Bu qidaları otaq temperaturunda çox saxlamaq olmaz. Qonaqların gəlməsinə 2-3 saat qalmış süfrəyə isti qidaların düzülməsi düzgün deyil. Mayonezli və ət məhsullarından söhbət gedir. Bu məhsullar yaxşı olar ki, qonaqlar süfrəyə əyləşəndə düzülsün. Əvvəlcə soyuq zəncir qırılmamaq şərtilə soyuq qəlyanaltılar-salatlar, isti zəncir qırılmamaq şərtilə isti yeməklər qoyulsun. Bu adamlar yeməyi istehlak etdikləri zaman nə zəhərlənmə, nə də köpmə, şişmə, həzmsizlik baş verməsin".

***Söylü Ağazadə***

# Qarşıdurma pik nöqtəsinə çatıb



*Sevinc Osmanqızı Əli Kərimlini "cəbhəçilər"ə xəyanət etməkdə, riyakarlıqda, AXCP sədri isə Sevinc Osmanqızını "hakimiyyətə işləməkdə" ittiham edir*

***Əli Kərimli, Fud Qəhrəmanlı, Sevinc Osmanqızı, Qənimət Zahid kimi antimilli ünsürlər arasındakı mövcud qrant davası, necə deyərlər, həlli çox müşkül olan bir münaqişə ocağı kimi qalmaqdadır.***

Son zamanlar antimilli düşərgədə daxili çəkişmələr gücləndiyini, qarşılıqlı ittihamların daha da çoxaldığını görməmək mümkün deyil. Bu mənada axır vaxtlar ABŞ-da məskunlaşan boqger Sevinc Osmanqızı ilə radikal müxalifətin lokomotivlərindən olan AXCP-nin təmsilçiləri arasında "virtual müharibə"nin getdikcə genişləndiyi diqqəti çəkir. Məsələ belədir ki, S.Osmanqız rəhbərlik etdiyi internet tv-dəki çıxışlarında, eləcə də efirə dəvət etdiyi "ekspertlər" vasitəsilə AXCP sədri Əli Kərimliyə qarşı kəskin ittihamlar səsləndirir. Öz növbəsində "cəbhəçilər" də Osmanqızıya qarşı ciddi kampaniya aparırlar.

Təbii ki, bütün bunlar təsadüfi deyil. Əslində S. Osmanqızı ilə Ə.Kərimli və onun tərəfdarları arasında əvvəllər də belə münaqişələrin və söz atışmalarının olduğu müşahidə olunub. Hələ bir neçə il bundan əvvəl, daha doğrusu, 2021-ci ildə AXCP sədrinin tərəfdarları, troll ordusu, eləcə də "Milli Şura"nın Ə.Kərimliyə yaxınlığı ilə tanınan aparıcı üzvləri S. Osmanqızının əleyhinə sərt ifadələr işlədərək, təhqirlər yağdıraraq onu xəyanətkarlıqda ittiham edirdilər. Bütün bunların özünəməxsus səbəbləri var idi. Belə ki, o zaman S. Osmanqızının efirinə ADP sədri Sərdar Cəlaloğlunu, Ümid Partiyasının sədri İqbal Ağazadəni və digərlərini dəfət etməsi, eləcə də AXCP-nin əvvəllər ölkədə keçirilən bütün seçkiləri boykot etmək qərarının düzgün olmadığını qabartması "cəbhəçilər"i və "Milli Şura"çıları bərk qıcıqlandırmışdı. Buna görə də S. Osmanqızı Ə.Kərimlidən tapşırıq alan məlum dəstənin necə deyərlər, "çəyirtkə hücumu"na məruz qalmışdı. İş o yerə çatmışdı ki, AXCP- "Milli Şura" birliyinin troll fabrikasında çalışanlar S. Osmanqızını "Səni çökdürəciyik" ifadələri ilə hədələmələrinə bloqger "Siz onda məni fiziki yox edəcəksiniz ki..." deyə qarşılıq vermişdi.

Təbii ki, məsələ bununla bitmədi. Əvvəllər olduğu kimi, S.Osmanqızının fevralın 7-də ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri zamanı AXCP-ni, bütövlükdə radikal müxalifəti fəaliyyətsizlikdə, acizlikdə ittiham etməsi, seçkilərin bu düşərgə tərəfindən boykot edilməsinin düz olmadığını dəfələrlə vurğulaması, bir neçə proqramında bu məsələni qabartması Ə.Kərimlini və onun tərəfdarlarını möhkəm qəzəbləndirdi. Yenə də qarşılıqlı ittihamlar az keçmədən təhqirə çevrildi. Uzun illərdən bəri Ə.Kərimliyə yaxınlığı ilə tanınan Qənimət Zahidin "Azərbaycan saatı" proqramında S.Osmanqızıya qarşı "səlib yürüşü" elan olundu. Qarşı tərəf də susmadı və əks-hücuma başladı. "Osmanqızı TV"-nin qonağı Beydulla Manafov Qənimət Zahidi Əli Kərimlinin "desantı" adlandırdı. S.Osmanqızı da öz növbəsində daim "parçala, idarə et" siyasəti yürüdən AXCP sədrini pulları təkbaşına mənimsəməkdə ittiham etdi. S.Osmanqızı bir az da irəli gedərək Ə.Kərimlini "cəbhəçilər"ə xəyanətdə ittiham edərək onun xain və riyakar olduğunu vurğulayır, AXCP sədri isə S.Osmanqızını "hakimiyyətə işləməkdə" ittiham edir.

Hazırda məlum qruplar arasında didişmə qaynar mərhələyə keçib, desək yanılmarıq. Belə ki, AXCP sədrinin müavini F.Qəhrəmanlı bu günlərdə deyib ki, bu ittihamların kökündə S.Osmanqızının hakimiyyətdən paket alması dayanır: "Sevinc Osmanqızının "Milli Şura"ya və AXCP -yə qarşı düşmən kəsilməsinin səbəbi onun müəyyən sifarişlər alması ilə bağlıdır. Sevinc xanım hakimiyyətdən paket almaqla AXCP və "Milli Şura"nı hədəf seçib". Şübhəsiz, S.Osmanqızı da bu ittihamlara səssiz qalmayıb, qarşı tərəfi qeyri-obyektivlikdə və qərəzdə günahlandırıb : "Kim sizə qarşı irad səsləndirirsə, onu hakimiyyətdən paket almaqda günahlandırırsınız, ayıbdır, utanın".

Məsələ orasındadır ki, əvvəllər də "qrant savaşına" görə əlbəyaxa olan bu antimilli ünsürlər özləri özlərini ifşa ediblər. Biz bu barədə dəfələrlə yazmışıq. Saysız təkzibolunmaz faktlara əsaslanan həmin yazılarda xüsusi ilə vurğulamışıq ki, bu marginalların arasında baş verən bütün çəkişmələrin kökündə onların şəxsi ambisiya və maraqları, xaricdəki ağaları tərəfindən ayrılan qrantları bölüşdürə bilməmələridir. Bu gün də başda AXCP sədri Əli Kərimli olmaqla onun müavini Fud Qəhrəmanlı, Sevinc Osmanqızı, Qənimət Zahid kimi autsayderlər arasındakı mövcud qrant davası, necə deyərlər, həlli çox müşkül olan bir münaqişə ocağı kimi qalmaqdadır.

***Zahid Rza***



# Erməni faşizminin iç-üzü...

*Tarixçi terror hadisələri ilə bağlı faktları AÇIQLADI*



"Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Qarabağ bölgəsinin işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədi ilə Ermənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur". Bu barədə SİA-ya açıqlamasında AMEA-nın əməkdaşı, tarixçi dosent Zaur Əliyev deyib.

Onun sözlərinə görə, onun sözlərinə görə, 19 mart 1994-cü il. Bakı metropoliteninin "20 Yanvar" stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır: "Məhkəmə sübut etmişdir ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı "Sadval" ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir. Müəyyən olunmuşdur ki, "Sadval" separatçı təşkilatının həmin fəalları 1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olmuş, bu ölkənin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak etmişdir. 1992-ci ilin aprel-may aylarında 30 nəfər Sadval üzvü Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçmişdir. İstintaq zamanı müəyyənləşdirilmişdir ki, təxribatçılar təlimata uyğun olaraq, "20 Yanvar" stansiyası ilə yanaşı, Bakının "Nizami" kinoteatrında, Respublika sarayında və Bakı lampa zavodunda da partlayışlar törətməyi planlaşdırmışlar".

Z.Əliyev bildirib ki, "20 Yanvar" metro stansiyasında partlayışın törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilmişdir: "Terror aksiyası Azərbaycan Respublikasının vətəndaşı, Dağlıq Qarabağ uğrunda gedən döyüşlər zamanı - 13 yanvar 1994-cü ildə əsir düşmüş və Ermənistan xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb edilmiş Aslanov Azər Salman oğlu tərəfindən törədilmişdir. O, 1997-ci ilin 29 noyabrında Azərbaycana ekstradisiya edilir. Həbs edilən Azər Aslanov terror aktı ilə bağlı etiraflar edir. O bildirir ki, Bakı metropolitenində terror aktı törətmək göstərişini erməni əsirliyində olarkən, erməni yazıçısı Zori Balayandan alıb. Azəri Samvel Babayanın otağında təlimatlandırıldılar.

Onu təlimatlandıranlardan biri də Mkrtıçyan idi. Məhkəmə araşdırmaları zamanı müəyyən olunmuşdur ki, 14 yanvar 1994-cü ildə Zori Balayan hərbi əsir, Azər Aslanovla görüşmüş, azərbaycanlılara qarşı mübarizədə bütün azsaylı xalqların birgə fəaliyyət göstərmələrinin vacibliyini bildirmişdir. 9 iyun 1994-cü ildə Ermənistan xüsusi xidmət orqanlarının Artur adlı əməkdaşı A.Aslanovun Bakıdakı mənzilinə zəng vuraraq onun sağ olduğunu bildirmiş və azad olunması üçün yaxın qohumlarından birinin Yerevan şəhərinə gəlməsinin zəruriliyini qeyd etmişdir. 16 iyun 1994-cü il tarixində A.Aslanovun anası Tacibat Aslanova Yerevana gəlmişdir. Azər Aslanova anasının həyatının təhlükə altında olduğu bildirilmiş, bu təhdidlər altında o, Ermənistan xüsusi xidmət orqanları ilə "Ömər-75"" təxəllüsü ilə daimi əməkdaşlığa cəlb edilmişdir. Azərbaycana maneəsiz gəlməsi üçün Azər Aslanovun adına saxta sənədlər hazırlanmış, partlayıcı maddə isə müvafiq qaydada peçenye, şokolad və dezodarant qutularında gizlədilmişdir. A.Aslanov "Yerevan-Mineralnıye Vodı-Bakı"marşrutu ilə Azərbaycana gələrək, 3 iyul 1994-cü ildə Bakı metrosunun "28 May" və "Gənclik" stansiyası arasında qatarda terror aktını həyata keçirmiş və yenidən Ermənistana qayıtmışdır".

Müsahibimiz qeyd edib ki, 1994-cü ildə Bakı metropolitenində baş vermiş terror aktlarının təlimatçıları – (martın 19-u "20 Yanvar" metro stansiyasında və ikincisi iyulun 3-ü "28 May" və "Gənclik" stansiyalarının arasında) Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları, polkovnik Karen Baqdasaryan və kapitan Seyran Sarkisyan olmuşlar: "Terror aktının planı isə Zori Balayana məxsus idi. Bu hadisədən sonra dostları ilə məclis keçirən Zori Balayan çaxır stəkanını qaldıraraq tost deyir: "Bakıda partlayış zamanı sanki, mən azərbaycanlı meyitlərinin üstüylə gəzirdim. Gün olsun bütün azərbaycanlıların meyidi üzərində gəzək". Və bu gün Zori Balayan sağdır.

Azərbaycan Respublikasının Ali Məhkəmə instansiyaları tərəfindən aparılmış araşdırmalar prosesində göstərilən terror aktlarının həyata keçirilməsində Dağlıq Qarabağın qeyri-qanuni rejiminin funksionerləri və Ermənistan Respublikasının xüsusi xidmət və digər dövlət orqanlarının təşkilatçılığı, maliyyə və texniki dəstəyi, əksər hallarda isə bilavasitə iştirakı prosessual qaydada sübuta yetirilib".

***Rəşid Qarayev***

# Ekspert: "Rusiya və Azərbaycandakı seçkilərin nəticələri Qafqaza əsl sülhün təminatıdır"



***Vladimir Putin Rusiyada keçirilən prezident seçkilərində 87,28 faiz səslə qalib gəlib. Seçici fəallığı Rusiyanın müasir tarixində rekord göstərici olub və 77,44% təşkil edib. Bir ay əvvəl, fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirildi və Azərbaycan lideri İlham Əliyev də rekord nəticə ilə qalib gəldi.***

Azərbaycan dövlətinin başçısı ilk olaraq rusiyalı həmkarına zəng edərək onu qələbə münasibətilə təbrik edib. Bu seçkilərin nəticələri Cənubi Qafqaz regionu üçün nə deməkdir? Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Baku"portalına müsahibəsində öz fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Dmitri Vladimiroviç, Rusiya və Azərbaycan seçicilərinin seçimi Cənubi Qafqaz üçün nə deməkdir?**

- Əvvələ, Rusiyada və Azərbaycanda keçirilən prezident seçkilərinin nəticələri Cənubi Qafqaz üçün o deməkdir ki, sabitlik tendensiyası region üçün prioritet olaraq qalacaq, real sülhün bərqərar olması və ölkədə qeyri-sabitliyin baş verməsinin qarşısını almaq şansı hələ də olacaq. Axı həm Rusiya, həm də Azərbaycan həqiqətən də bütün səyləri ilə buna nail olmağa çalışır və maraqlı qüvvələrin tam sülhün bərqərar olmasına mane olmaq cəhdlərinə müqavimət göstərirlər. Rusiya üçün Zaqafqaziya qonşu regiondur, ona görə də orada sülh Rusiya dövləti üçün həyati əhəmiyyət kəsb edir, xüsusən də Rusiya Federasiyası ilə Qərb arasında şiddətli münaqişənin hökm sürdüyü, Qərb və Qərbyönlü qüvvələrin dövlətinizə zərər vermək üçün əlindən gələni etdiyi bir vaxtda. Rusiya Federasiyasına qarşı bütün səviyyələrdə, o cümlədən onun sərhədləri boyunca təxribat törətməyə çalışırlar. Cənubi Qafqaz isə ondan getdikcə daha çox Rusiyaya qarşı istifadə edən qüvvələrin diqqət mərkəzində olmaqda davam edir.

Vladimir Putinin Rusiya xalqı tərəfindən yeni müddətə seçilməsi, o cümlədən, Azərbaycandakı seçki məntəqələrində- orada o, təxminən 70 faiz səs toplayıb- və İlham Əliyevin rusiyalı həmkarını təbrik edən ilk liderlərdən biri olması faktı. Azərbaycanlı həmkarı Vladimir Putinin ölkəsinin dövlətçiliyini gücləndirdiyini qeyd etdi, Azərbaycanla Rusiya arasında müttəfiqliyi vacib adlandırdı- bunlar təbii ki, strateji müttəfiqliyin necə yüksəldiyindən xəbər verən addımlardır.

Elə bu günlərdə Əliyev Bakıda Rusiya baş nazirini qəbul edərkən Azərbaycan prezidentinin səsləndirdiyi sözlər də əlamətdardır. O, sadəcə olaraq, Moskva ilə Bakının münasibətləri üçün çox mərkəzi fikri səsləndirdi: Azərbaycan-Rusiya münasibətləri Cənubi Qafqazda sabitlik və təhlükəsizlik amilidir. Bu gün dünyada və regionda vəziyyətin ağır olduğu, Rusiya Federasiyasının Qərbin görünməmiş təzyiqləri ilə üzləşdiyi bir vaxtda belə sözlər çox dəyərlidir. Bunlar əslində Azərbaycanın rus xalqının seçiminə dəstəyinin sözləridir. Müttəfiqlər strateji münasibətləri daha da inkişaf etdirməyə hazırdır. Mişustinin Rusiyada prezident seçkiləri öncəsi Azərbaycana səfəri də məhz belə siyasətin və Bakıya etimadın növbəti siqnalı oldu.

Putin də, Əliyev də güclü liderdir, onların arasında kimya, dostluq münasibətləri var, hər ikisi sözünün ağasıdır. Ölkələrin əməkdaşlığı qısamüddətli mənfəətə əsaslananda (yaxşı nəyisə qazanıb, sonra qaçmaq) yox, uzunmüddətli perspektivdə, sistemli yanaşmalar səviyyəsində, şəxsi etimad səviyyəsində, milli maraqları qarşılıqlı rəhbər tutanda münasibətlərin möhkəmliyinə təminat olur. Ölkələrimizdə seçkilərin nəticələri Rusiya və Azərbaycan tərəfindən dövlətçiliyin möhkəmlənməsidir.

Bu gün Rusiya digər qonşuları kimi MDB dövlətləri ilə də münasibətləri möhkəmləndirməyə çalışır və heç də səbəbsiz deyil ki, bir çox liderlər artıq Rusiya prezidentini qələbə münasibətilə təbrik etsə də, MDB liderlərinin təbrikləri Kremlin saytında xüsusi yer alıb. Azərbaycan isə MDB platformasını gücləndirən qeyd-şərtsiz məsuliyyətli dövlətdir.

İki ölkə xalqının hazırkı prezidentlərə güclü dəstək nümayiş etdirməsi onu deməyə əsas verir ki, bizim siyasətimiz bundan sonra da birbirimiz üçün proqnozlaşdırıla bilən olacaq. Biz çalışacağıq ki, regionun digər dövlətləri də regionda belə konstruktiv sülh və əməkdaşlıq siyasətini dəstəkləsinlər.

Bu gün ciddi geosiyasi dəyişikliklər fonunda Rusiya ilə Azərbaycanı bir çox ümumi cəhətlər var. Və ilk növbədə, onlar suveren dövlətlərin siyasətini aparır, milli maraqlarını müdafiə edirlər, çoxqütblü dünyanın qurulmasında birgə iştirak edirlər və təbii ki, eyni istiqamətə baxırlar.

Vacib olan odur ki, həm Moskva, həm də Bakı dünyada bir qüvvənin hegemonluğunun olmaması prinsipinə əməl edəndə, hər bir ölkənin öz suverenliyini seçmək hüququna malik olduğu halda Rusiya və Azərbaycanı ümumi xarici siyasət yanaşması birləşdirir. Bu azad inkişaf yoludur və heç kimin ona təzyiq etmək hüququ yoxdur. Şiddətli geosiyasi qarşıdurma şəraitində bu, bizi daha da yaxınlaşdırır. Qərblilər hələ də hər kəsə hər şeyi öyrətmək haqqının onlara "Allahın tərəfindən verildiyinə" inanırlar. Kinik və kobudluq nümunəsi, hələ Rusiyada seçkilər təyin edilməmişdən əvvəl Qərb onları artıq etibarsız elan etmişdi. Birincisi, onlardan fikrini kim soruşdu, ikincisi, hələ baş tutmamış seçkilər necə "qanunsuz" sayıla bilər? Məntiq haradadır? Amma yox, görünür, müstəmləkə keçmişinə arxalanan Qərb dünyanın müxtəlif yerlərində başqa xalqların əsarət altına alınmasını "ağlının işığı" kimi təqdim edərkən, bu gün belə siyasətlə vidalaşmaq istəmir. Qərb ölkələri hələ də oxşar siyasətləri davam etdirə biləcəkləri inancı ilə yaşayırlar. Amma yox, dünya dəyişib. Rusiya artıq buna dözmür. Qərbin vaxtaşırı olmayan şeylərə görə qınadığı Azərbaycan da.

Biz xatırlayırıq ki, bu yaxınlarda Azərbaycanda keçirilən prezident seçkilərinin nəticələrinə rəyində ATƏT/DTİHB onu alternativsiz seçki kimi qiymətləndirib, ABŞ və Aİ Bakını bu strukturun tövsiyələrini yerinə yetirməyə çağırıb.

Və bu gün biz Qərbin böyük ölkələrindən və strukturlarından Rusiyaya qarşı eyni ittihamları eşidirik. Onlar hesab edirlər ki, hər bir ölkədə hər şey onların əmri ilə baş verməlidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***




Rusiya və Azərbaycan birlikdə "Qlobal Cənub"un ümumi dost dövlətləri ilə münasibətləri eyni vaxtda gücləndirməyə başladılar. Təsadüf idi, daha doğrusu, həm Rusiya, həm də Azərbaycan bu strateji zərurəti gördü. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi 4 il ərzində inkişaf etməkdə olan ölkələrin maraqlarını müdafiə etdi və bu ikinci böyük beynəlxalq strukturun yeni mühüm institutlarını formalaşdırdı. Bütün bunlar Rusiyanın bu gün həyata keçirdiyi xarici siyasətə tamamilə uyğundur. Biz birlikdə Afrika və Latın Amerikası, həmçinin Çinlə əlaqələri inkişaf etdiririk. Biz birlikdə Qərbin neokolonial siyasətinə qarşı mübarizə mövzusunu qaldırırıq.

Xatırladım ki, 2022-ci ildə Ukraynada xüsusi hərbi əməliyyat başlamazdan əvvəl Azərbaycan Prezidenti düzgün mövqe qoyaraq Rusiya ilə Müttəfiqlik Əməkdaşlığı haqqında tarixi Bəyannamə imzaladı. Jurnalistlər sonralar ondan "vaxtı geri qaytarmaq mümkün olsa, bu sazişdən imtina edərdinizmi" deyə soruşduqda o, cavab verdi ki, "yox, çünki müəyyən cari vəziyyətlər zamanla keçəcək və Bakının bu qərarı gələcək üçündür". Bu, həm Azərbaycan rəhbərinin, həm də Rusiya liderinin uzaqgörən strateji yanaşmasıdır. Bu gün Rusiya və Azərbaycan Moskva üçün strateji əhəmiyyət kəsb edən layihələri, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizini birgə həyata keçirirlər. Qərbin Moskvaya qarşı sanksiyaları isə bizim əməkdaşlığımızı daha da gücləndirdi və yeni əməkdaşlıq sahələri açdı.

Rusiya, xatırladığımız kimi, Azərbaycanın mütəmadi təxribatlardan sonra işğal olunmuş ərazilərini hərbi yolla geri qaytarmağa məcbur olduğu vəziyyətə kifayət qədər sakit reaksiya verdi. Rusiya hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Moskva nəinki müharibəni dayandırmaq, hətta 30 ilə yaxındır həllini tapmayan Ermənistan-Azərbaycan münaqişəsinin həllinə töhfə vermək üçün əlindən gələni edib. Rusiya üçtərəfli bəyanatın imzalanmasının qarantı oldu və bütün bu illər Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına imkan yaratdı. O, bunu istəyir və indi bunun üçün mümkün olan hər şeyi edir.

**- Ermənistanın baş naziri hələ də Vladimir Putini qələbə münasibətilə təbrik etməyib... Və faktiki olaraq, seçki məntəqələrindən çəkilmiş videogörüntülərə görə, respublika müxalifət düşüncəli Rusiya vətəndaşlarının qalalarından birinə çevrilib...**

- Rusiya və Azərbaycan Ermənistanla sülh istəyir. Bu gün Ermənistanın özü isə, təəssüf ki, Rusiya və Azərbaycan bunu dəyişməyə nə qədər çalışsalar da, bölünmüş dünyanın barrikadalarının o biri tərəfində dayanır. Üstəlik, yaratmaqdan çox məhv etməyi qarşısına məqsəd qoyanların tərəfində.

Bugünkü Ermənistanın timsalında respublikanın hakimiyyət orqanları ilə xalqın mövqeyini bir-birindən ayırmaq lazımdır. Rəhbərliyin mövqeyi və xalqın mövqeyi. Erməni xalqı Rusiyanın yanında qalır. Təəssüf ki, Ermənistan bu gün Qərbin Rusiyaya qarşı mübarizə alətinə çevrilib. Ermənistan qərbyönlü kurs tutmuşdur və hər vasitə ilə Rusiyanı ləkələməyə və onun erməni xalqına xidmətlərindən imtina etməyə çalışır. Bəli, haələlik Nikol Paşinyan demək olar ki, yeganə MDB lideridir ki, Putini qələbəsi münasibətilə təbrik etməyib. Bəlkə də sonadək belə olacaq, amma belə olsa, səmimi olacaq...

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

SƏS

20 mart
2024-cü il

# Sosial şəbəkələrə giriş şəxsiyyət vəsiqəsi ilə olacaq?




***"Əslində, sosial şəbəkələrin hər birinin özünəməxsus qayda-qanunları var və hər kəs bunlara əməl edərsə, heç bir problem yaşanmaz. Yəni, sui-istifadə halları, saxta adlarla qeydiyyatdan keçmək, istifadəçilərin qeyri-etik ifadələrdən istifadə etməsi, yalan xəbərlərin paylaşılması və s. sosial şəbəkələrdə qadağan olunmuş davranışlardır. Amma təəssüf ki, dünyanın heç bir yerində, o cümlədən, Azərbaycanda bu qadağalara məhəl qoyulmur və bəzi şəxslər ya qruplar öz məqsədləri üçün sosial şəbəkələrin demokratikliyindən sui-istifadə edirlər". Bu sözləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət deyib.***

Onun sözlərinə görə, vaxtilə bunun qarşısını almaq üçün təkliflər irəli sürülüb: "Sosial şəbəkələrdə saxtakarlıqların qarşısını böyük hesabla ala bilmək üçün istifadəçilərin şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçməsi vacibdir. Bu yolla artıq təsadüfi adamların saxta adlar altında fəaliyyətini əngəlləyə biləcəyik. Çünki saxta ad altında gizlənənlər məsuliyyətdən yayına bilirlər. Ona görə də həmin şəxslər ağına-bozuna baxmadan başqalarını təhqir edir, yalan informasiyalar yayır, cəmiyyəti körükləndirən paylaşımlar edirlər".

**EKSPERT MÜNASİBƏT BİLDİRDİ**

"Halbuki insanlar şəxsiyyət vəsiqələri ilə, yəni kimlikləri tanınacaq şəkildə qeydiyyatdan keçərsə, məsuliyyət hissini arxa plana keçirə bilməyəcəklər. Anlayacaqlar ki, atacaqları hər bir addıma görə cavab verə bilərlər. Təbii ki, söhbət sui-istifadə hallarından gedir. Normalda isə heç kim bir başqasının azadlığına müdaxilə etmir və edə bilməz. Azərbaycan dövlətində bu azadlıqlar Konstitusiya ilə təminat altına alınır",- deyə o əlavə edib.

***Ləman Sərraf***



# Amerikalı aktyorun oğlu rusiyalı model ilə evləndi

**Amerikalı aktyor Stiven Siqalın oğlu Dominik ötən gün rusiyalı model Ayrin Danilova ilə ailə qurub. Bu barədə görüntülər sosial şəbəkədə yayılıb.**

**Cütlüyün nikahı Moskvada baş tutub. Mərasimdə Rusiya vətəndaşlığı alan Stiven özü də iştirak edib.**

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Bu gündən Azərbaycanda 7 günlük Novruz tətili başlayır



***Bu gündən martın 20-dən Azərbaycanda Novruz bayramı ilə əlaqədar bir həftə (7 gün) qeyri-iş günü olacaq. SİA xəbər verir ki, Nazirlər Kabinetinin "2024-cü il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" qərarına əsasən, 2024-cü il martın 20-si, 21-i, 22-si, 23-ü və 24-ü Novruz bayramı günləri müəyyən edilib. Martın 23-ü və 24-ü şənbə və bazar günlərinə təsadüf etdiyi üçün Azərbaycanın Əmək Məcəlləsinə əsasən, martın 25-i və martın 26-sı da qeyri-iş günləri olacaq.***

Beləliklə, Novruz Bayramı ilə əlaqədar 7 gün ardıcıl (martın 20-si, 21-i, 22-si, 23-ü, 24-ü, 25-i və 26-sı) qeyri-iş günləridir. Azərbaycanda bayram tətilindən sonra növbəti iş günü martın 27-dir. Türk xalqlarının ənənələrindən olan Novruz yazın gəlişinin bayram edilməsidir.

Azərbaycanlıların Novruz, qırğızların Nooruz, özbəklərin Növroz, başqırd türklərinin Nevruz, tatarların Navruz, çuvaşların Naurus, Krım türklərinin Nevrez, Qərbi trakiyalıların Mevris adlandırdıqları bu bayram Şimal yarımkürəsinin bir çox ölkələrində hər ilin mart ayında el bayramı kimi geniş qeyd olunur.

Novruz bayramı bütün dünyada 300 milyondan artıq insan tərəfindən yeni ilin başlanğıcı kimi qəbul olunur. Artıq 3 min ildir ki, Novruz Balkanlarda, Qara dəniz hövzəsi regionunda, Qafqazda, Mərkəzi Asiyada, Yaxın Şərqdə və digər regionlarda qeyd edilir.

## ELAN

**Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən Yunisli Leyla Nazim qızına verilmiş 85 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**